UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

# Uşaq Hüquqları üzrə Komitənin

# Küçə mühitində olan uşaqlar haqqında

# 21 (2017) saylı ümumi şərhi

İNSAN HÜQUQLARI



Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi hesabına Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən tərcümə edilərək dərc olunmuşdur. Bu nəşrin müəllifi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Bu nəşrdə istifadə olunan məzmun və material heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

# Uşaq hüquqları üzrə Komitənin küçə mühitində olan uşaqların hüquqları haqqında 21 saylı Ümumi Şərhi (2017)

Birləşmiş Millətlər Təşkilatı

CRC/C/GC/21

“Uşaq hüquqları haqqında” Konvensiya

Paylanma: Ümümi
21 iyun 2017-ci il

Əsli: İngilis dili
Qeyri-rəsmi tərcümə

Uşaq Hüquqları üzrə Komitə

# Küçə mühitində olan uşaqlar haqqında 21 (2017) nömrəli ümumi şərh

# Mündəricat

*Səhifə*


I. Giriş : "Hekayəmizi dəyişin" 5
II. Ümumi Kontekst 5
III. Məqsədlər 8
IV. Uşaq hüquqları yanaşmasına əsaslanan uzunmüddətli strategiyalar 9
V. Konvensiyanın küçə mühitində olan uşaqlarla bağlı əsas maddələri 16
VI. Məlumatların yayılması və əməkdaşlıq 38

## I. Giriş: "Hekayəmizi dəyişin"

1. Hazırkı ümumi şərh üçün məsləhətləşmələr çərçivəsində söhbət aparılmış küçə mühitində olan uşaqlar hörmət, ləyaqət və hüquqlara olan ehtiyacları barədə qəti fikirlər səsləndirdilər. Onlar öz hisslərini ifadə edərkən, digər məsələlərlə yanaşı, aşağıdakıları dedilər: "Bizə insan kimi hörmət edin"; "Heç vaxt küçədə yaşamamış insanların bizi qürurlu insanlar kimi, normal insanlar kimi görməsini istərdim"; "Bizim küçələrdən yığışdırılmağımız və sığınacaqlara aparılmağımızla məsələ bitmir. Məsələ bizə status verməkdir"; "Hökumətlər bizə küçələrə düşməməli olduğumuzu deməməlidir. Küçələrdə olsaq da, bizi incitməməlidirlər. Bizi qəbul etməlidirlər"; "Küçədə yaşamaq o demək deyil ki, bizim hüquqlarımız ola bilməz"; "Küçə həyatı öz izini buraxır: ya xilas olursan, ya da yox"; "Biz kömək, sədəqə, mərhəmət istəmirik. Hökumətlər bizim hüquqlarımızı təmin etmək üçün cəmiyyətlə işləməlidir. Biz sədəqə istəmirik. Mən öz qayğısına qalacaq biri olmaq istəyirəm"; "[İnsanlar] arzularımıza çatmaq üçün bizə öz bacarıq və istedadımızdan istifadə etmək şansı verməlidir"; "Bizə öz taleyimizi dəyişdirmək fürsəti verin".[1]

## II. Ümumi kontekst

### Məqsəd

2. Hazırkı ümumi şərhdə Uşaq Hüquqları üzrə Komitə dövlətlərə "Uşaq hüquqları haqqında" Konvensiyaya uyğun olaraq, hərtərəfli uşaq hüquqları yanaşmasından istifadə etməklə və həm qabaqlayıcı, həm də cavab tədbirlərini əhatə etməklə, küçə mühitində olan uşaqlarla bağlı uzunmüddətli, kompleks milli strategiyaların işlənib-hazırlanmasına dair etibarlı tövsiyələr təqdim edir. Konvensiya küçə mühitində olan uşaqları birbaşa qeyd etməsə də, onun bütün müddəaları küçə mühitində olan uşaqlara şamil edilir. Bu uşaqlar Konvsensiyanın maddələrinin böyük əksəriyyətinin pozulması ilə üzləşirlər.

[1] Bütün sitatlar hazırkı ümumi şərh üçün aparılan məsləhətləşmələrdən və ya yazılı təqdim olunmuş məlumatlardan götürülmüşdür. Müvafiq olaraq, onlar aşağıdakılardan əldə olunub: Banqladeşdəki uşaqlar (Dəkkədən yazılı şəkildə göndərilib); Latın Amerikasındakı uşaqlar (Meksikada məsləhətləşmə); Braziliyadan olan 15 yaşlı oğlan; Hindistandan olan 18 yaşlı oğlan və qız; Konqo Demokratik Respublikasından olan uşaqlar və gənclər; Avropadan olan uşaqlar və gənclər (Brüsseldə məsləhətləşmə); Pakistandan olan 16 yaşlı oğlan; Burundidən olan oğlan; və Braziliyadan olan 18 yaşlı oğlan.

## Məsləhətləşmələr

3. Ümumilikdə 7 regional məsləhətləşmə çərçivəsində 32 ölkədən olan 327 uşaq və gənclə söhbətlər aparılıb. Vətəndaş cəmiyyəti nümayəndələri materialların təqdim olunması ilə bağlı ümumi çağırışa cavab verdilər və ilkin layihə bütün iştirakçı dövlətlərlə bölüşüldü.

## Terminologiya

4. Keçmişdə küçə mühitində olan uşaqları təsvir etmək üçün istifadə edilən terminlərə "küçə uşaqları", "küçədə qalan uşaqlar", "qaçmış uşaqlar", "atılmış uşaqlar", "küçədə yaşayan və/yaxud işləyən uşaqlar" , "evsiz uşaqlar" və "küçəyə bağlı uşaqlar" daxil idi. Hazırkı ümumi şərhdə istifadə edilən "küçə mühitində olan uşaqlar" termini özündə aşağıdakıları ehtiva edir: (a) tək, həmyaşıdları və ya ailəsi ilə birlikdə yaşamaq və/və ya işləmək üçün küçələrdən asılı olan uşaqlar; və (b) ictimai yerlərlə möhkəm əlaqələr formalaşdırmış və gündəlik həyatlarında və şəxsiyyətinin formalaşmasında küçənin mühüm rol oynadığı daha geniş qrupa daxil olan uşaqlar. Uşaqların bu daha geniş qrupuna həmişə olmasa da, vaxtaşırı küçələrdə yaşayan və/yaxud işləyən uşaqlar və küçədə yaşamayan və ya işləməyən, lakin mütəmadi olaraq həmyaşıdlarını, bacı-qardaşlarını və ya ailəsini küçələrdə müşayiət edən uşaqlar daxildir. Küçə mühitində olan uşaqlar nəzərdə tutulduqda, "ictimai yerlərdə olmaq" ifadəsi küçələrdə və ya küçə bazarlarında, ictimai parklarda, ictimai icma yerlərində, meydanlarda, avtovağzallarda və ya dəmir yolu vağzallarında əhəmiyyətli dərəcədə vaxt keçirmək kimi başa düşülür. Buraya ictimai binalar, məsələn, məktəblər, xəstəxanalar və ya digər oxşar obyektlər daxil deyil.

## Əsas müşahidələr

5. Küçə mühitində olan uşaqlara münasibətdə istifadə olunan müxtəlif yanaşmalar mövcuddur və onlar bəzən birgə tətbiq olunur. Bunlara aşağıdakılar daxildir: uşağa hüquq sahibi kimi hörmət edilməsini və qərarların çox vaxt uşaqla birlikdə verilməsini ehtiva edən uşaq hüquqları yanaşması; obyekt və ya qurban kimi qəbul edilən uşaqların küçədən "xilas edilməsini" ehtiva edən və bu uşaqların baxışlarını ciddi şəkildə nəzərə almadan onlar üçün qərarların qəbul edilməsini nəzərdə tutan rifah yanaşması; və uşağın cinayətkar kimi qəbul edildiyi repressiv yanaşma. Rifah yanaşması və repressiv yanaşma uşağı hüquq sahibi kimi tanımır və uşaqların küçələrdən zorla çıxarılması ilə nəticələnir ki, bu

da onların hüquqlarını daha da pozur. Həqiqətən də, rifah yanaşması və repressiv yanaşmanın uşağın ali maraqlarına xidmət etdiyini iddia etmək onların hüquqlara əsaslanmasını təmin etmir. [2] Konvensiyanın tətbiqi üçün uşaq hüquqları yanaşmasından istifadə etmək vacibdir.

6. Küçə mühitində olan uşaqlar yekcins bir qrup deyil. Onların xüsusiyyətləri yaş, cins, etnik mənsubiyyət, yerli xalqlara mənsubluq, vətəndaşlıq, əlillik, cinsi oriyentasiya və gender kimliyi/ifadəsi və s. baxımından müxtəlifdir. Bu müxtəliflik müxtəlif təcrübələri, riskləri və ehtiyacları ehtiva edir. Fəaliyyətin xarakteri və küçədə fiziki olaraq sərf olunan vaxt, eləcə də həmyaşıdları, ailə üzvləri, icma üzvləri, vətəndaş cəmiyyəti subyektləri və dövlət orqanları ilə münasibətlərin xarakteri və dərəcəsi uşaqdan-uşağa əhəmiyyətli dərəcədə dəyişir. Uşaqların qurduğu əlaqələr onların küçələrdə sağ qalmasına kömək edə və/yaxud hüquqlarının kobud şəkildə pozulması hallarının davamlı olmasına kömək edə bilər. Uşaqlar ictimai yerlərdə bir sıra fəaliyyətlərlə, o cümlədən iş, sosiallaşma, istirahət/asudə vaxt, sığınacaq, yatmaq, yemək bişirmək, yuyunmaq və narkotik vasitə və psixotrop maddələrdən sui-istifadə və ya cinsi fəaliyyətlə məşğul olurlar. Uşaqlar bu cür fəaliyyətlərdə başqa real seçimlərinin olmaması səbəbindən könüllü şəkildə və ya digər uşaqlar və ya böyüklər tərəfindən məcbur edilmə və ya güc tətbiqi nəticəsində məşğul ola bilərlər. Uşaqlar bu fəaliyyətləri təkbaşına və ya ailə üzvləri,[3] dostları, tanışları, dəstə üzvləri və ya onları istismar edən həmyaşıdları, daha yuxarı yaşlı uşaqlar və/yaxud böyüklərin müşayiəti ilə həyata keçirə bilərlər.

7. Çox vaxt məlumatlar sistemli şəkildə toplanmır və ya təsnifləşdirilmir, buna görə də küçə mühitində olan uşaqların sayı naməlumdur. Təqribi hesablamalar sosial-iqtisadi, siyasi, mədəni və sair amilləri özündə əks etdirən təriflərdən asılı olaraq dəyişir. Məlumatın olmaması bu uşaqları görünməz edir, bu da siyasətlərin hazırlanmamasına və ya situativ, müvəqqəti və ya qısamüddətli tədbirlərin görülməsinə gətirib çıxarır. Bu, uşaqları küçə mühitinə düşməyə məcbur edən və uşaqların küçələrdə olduğu müddətdə də davam edən çoxsaylı hüquq pozuntularının qalması ilə nəticələnir. Bu məsələ hər bir dövləti maraqlandırır.

[2] Bax: Uşağın zorakılığın bütün formalarından azad olmaq hüququna dair 13 (2011) nömrəli ümumi şərhin 59-cu bəndi və Uşağın öz maraqlarının əsas amil kimi nəzərə alınması hüququna dair 14 (2013) nömrəli ümumi şərh.

[3] Ailələri ilə birlikdə küçə mühitində olan uşaqlara münasibətdə, hazırkı ümumi şərh əsas hüquq sahibləri kimi uşaqlara yönəlir. Küçə mühitində olan uşaqların öz uşaqları olduqda, hər bir uşaq nəslinin maraqları əsas diqqət mərkəzində olmalıdır.

8. Uşaqların küçə mühitinə düşməsinin səbəbləri və yayılma dərəcəsi, eləcə də uşaqların yaşadığı təcrübələr dövlətlər daxilində və dövlətlər arasında fərqlənir. İqtisadi vəziyyət, irq və cinsiyyətə əsaslanan bərabərsizliklər uşaqların küçə mühitinə düşməsinin və təcrid olunmasının struktur əsaslı səbəblərindəndir. Bunlar maddi yoxsulluq, qeyri-adekvat sosial müdafiə, investisiyaların kifayət qədər dəqiq ünvanlanmaması, korrupsiya, eləcə də yoxsul əhalinin yoxsulluqdan çıxmaq imkanlarını azaldan və ya aradan qaldıran fiskal (vergi və xərclər) siyasətlər nəticəsində daha da kəskinləşir. Münaqişə, aclıq, epidemiya, təbii fəlakət və ya məcburi köçürmə, yaxud yerdəyişmə və ya məcburi miqrasiyaya gətirib çıxaran hadisələr nəticəsində sabitliyin qəfil pozulması struktur əsaslı səbəblərin təsirlərini daha da artırır. Digər səbəblərə aşağıdakılar daxildir: evdə və ya qayğı və ya təhsil müəssisələrində (o cümlədən dini) zorakılıq, sui-istifadə, istismar və baxımsızlıq; himayəçilərin ölümü; uşaqlardan imtina (o cümlədən İİV/QİÇS səbəbindən);[4] himayəçilərin işsizliyi; riskli vəziyyətdə olan ailələr; ailənin dağılması; çoxarvadlılıq;[5] təhsil sistemindən təcrid olunma; narkotik vasitələr və psixotrop maddələrdən sui-istifadə və psixi pozuntular (uşaqlarda və ya ailə üzvlərində); əlilliyi olan uşaqlara, cadugərliklə günahlandırılan uşaqlara, ailələrinin imtina etdiyi keçmiş uşaq əsgərlərə və cinsi oriyentasiyasının sorğulanması və ya lezbiyan, qey, biseksual, transseksual, interseks və ya aseksual kimi təsbit olunması nəticəsində ailələrindən atılmış uşaqlara qarşı dözümsüzlük və ayrı-seçkilik; və ailələrin uşaqların zərərli təcrübələrə, məsələn, uşaq nikahı və qadın sünnətinə müqavimətini qəbul etməkdə acizliyi.[6]

## III. Məqsədlər

9. Ümumi şərhin məqsədləri aşağıdakılardır:

(a) Dövlətlərin küçə mühitində olan uşaqlara yönələn strategiya və təşəbbüslərə uşaq hüquqları yanaşmasının tətbiqinə dair öhdəliklərini aydınlaşdırmaq;

(b) Dövlətlərə aşağıdakı məqsədlərlə hərtərəfli uşaq hüquqları yanaşmasından istifadəyə dair əhatəli və etibarlı təlimatlar təmin etmək: uşaqların hüquqlarının pozulmasının və onların yaşamaq və inkişaf etmək üçün

[4] Bax: İİV/QİÇS və uşaq hüquqlarına dair 3 (2003) nömrəli ümumi şərhin 7-ci bəndi.

[5] Bax: Qadınlara qarşı Ayrı-seçkiliyin Aradan Qaldırılması üzrə Komitənin 31 saylı birgə ümumi tövsiyəsi/Uşaq Hüquqları Komitəsinin zərərli təcrübələrə dair 18 saylı ümumi şərhinin (2014) 25-28-ci bəndləri.

[6] Eyni mənbə 19-24-cü bəndlər

küçələrdən asılı olması ilə nəticələnən seçim yoxluğunun qarşısını almaq; artıq küçə mühitində olan uşaqlar üçün davamlı qayğı sistemi təmin etməklə və onların öz tam potensialına çatanadək inkişaf etməsinə kömək etməklə, onların hüquqlarını yaxşılaşdırmaq və müdafiə etmək;

(c) Konvensiyanın müəyyən maddələrinin küçə mühitində olan uşaqlara hüquq sahibləri və tam vətəndaşlar kimi hörmət edilməsini artırmaq və uşaqların küçə ilə əlaqələri barədə təsəvvürləri gücləndirmək baxımından təsirlərini müəyyən etmək.

## IV. Uşaq hüquqları yanaşmasına əsaslanan uzunmüddətli kompleks strategiyalar

### A. Uşaq hüquqları yanaşması

### Təsvir

10. Uşaq hüquqları yanaşması çərçivəsində uşaqların hüquqlarının reallaşdırılması onun son nəticəsi qədər önəmlidir. Uşaq hüquqları yanaşması uşaqların ləyaqətinə, həyatına, sağ qalmasına, rifahına, sağlamlığına, inkişafına və iştirakına hörmətin və hüquq sahibi kimi ayrı-seçkiliyə məruz qalmamasının təminatı kimi çıxış edir.

11. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fonduna (UNİCEF) görə,[7] uşaq hüquqları yanaşması aşağıdakıları xüsusiyyətlərlə səciyyələndirilir:

(a) Konvensiyada və insan hüquqlarına dair digər beynəlxalq müqavilələrdə təsbit olunmuş uşaq hüquqlarının həyata keçirilməsinə töhfə verir;

(b) Konvensiyada və insan hüquqlarına dair digər beynəlxalq müqavilələrdəki uşaq hüquqlarına dair standartları və prinsipləri davranış, hərəkət, siyasət və proqramlara, xüsusən aşağıdakılar baxımından istiqamət vermək üçün istifadə edir: ayrı-seçkiliyə yol verməmə; uşağın ali maraqları; yaşamaq, sağ qalmaq və inkişaf etmək hüququ; dinlənilmək və ciddi qəbul

[7] Bax: UNICEF, *Child Rights Education Toolkit*: Rooting Child Rights in Early Childhood Education, Primary and Secondary Schools (Geneva, 2014), p. 21. Burada: https://www.unicef.org/crc/files/UNICEF_CRE_Toolkit_FINAL_web_version170414.pdf. Həmçinin bax: 13 nömrəli Ümumi Şərh, 59-cu bənd. Həmçinin bax: "Human Rights Based Approach to Development Cooperation". Burada: http://hrbaportal.org/the-human-rights-based-approach-to-development-cooperation-towards-a-common-understanding-among-un-agencies.

edilmək hüququ; uşağın, onun inkişaf edən qabiliyyətlərinə uyğun olaraq, öz hüquqlarının həyata keçirilməsində himayəçiləri, valideynləri və icma tərəfindən istiqamətləndirilmək hüququ;

(c) Uşaqların öz hüquqlarını tələb etmək üçün hüquq sahibləri kimi potensialını və öhdəlik daşıyıcılarının uşaqlarla bağlı öhdəliklərini yerinə yetirmək potensialını gücləndirir.

### Yanaşmanın küçə mühitində olan uşaqlar üçün əhəmiyyəti

12. Komitə hesab edir ki, uşaq hüquqları yanaşmasını tətbiq edən strategiya və təşəbbüslər səviyyə və ya kontekstdən asılı olmayaraq, nümunəvi təcrübənin əsas meyarlarına cavab verir. Küçə mühitində olan uşaqlar çox vaxt öz həyatlarına böyüklərin müdaxiləsinə etibar etmirlər. Onların cəmiyyətdə böyüklər tərəfindən zorakı rəftara məruz qalması onların məhdud da olsa, çətinliklə qazanılmış müstəqilliklərindən əl çəkmək istəməməsinə gətirib çıxarıb. Bu yanaşma onların müstəqilliyinə tam hörməti, o cümlədən küçələrdən asılılığa alternativlər tapmaqda onlara dəstəyin göstərilməsini ön plana çəkir. Bu, onların qərarların qəbulunda iştirakını artıraraq və onları sosial-iqtisadi, siyasi və mədəni həyatın subyektləri kimi hüquq və imkanlarını genişləndirərək onların dözümlülüyünü və qabiliyyətlərini inkişaf etdirir. Bu, onların mövcud güclü tərəflərinə və onların özlərinin və həmyaşıdlarının, ailələrinin və icmalarının sağ qalmasına və inkişafına verdikləri müsbət töhfələrə söykənir. Bu yanaşmanın tətbiqi yalnız mənəvi və hüquqi zərurət deyil, həm də küçə mühitində olan uşaqlar üçün uzunmüddətli həllərin müəyyən edilməsi və tətbiqi üçün ən dayanıqlı yanaşmadır.

## B. Milli strategiyalar

### Ümumi məlumat

13. Konvensiya üzrə öhdəliklərinə əməl etmələri üçün dövlətlər hərtərəfli və uzunmüddətli strategiyalar qəbul etməyə və küçə mühitində olan uşaqlar üçün lazımi büdcə ayırmalarını təmin etməyə təşviq edilir. Kəsişən məsələlər və proseslər aşağıda göstərilir, onlardan sonra isə bu cür strategiyalarda toxunulmalı olan tematik məzmun təqdim olunur. Öz həyatlarının eksperti kimi, küçə mühitində olan uşaqlar strategiyaların hazırlanmasında və icrasında iştirak etməlidir. Dövlətlər üçün ilk addım bu uşaqların hüquqlarını qorumağın ən yaxşı yollarına qərar vermək üçün öz ölkələrində bu uşaqlar barədə məlumatlar toplamaqdır. Dövlətlər bir sahə üzrə siyasətin, məsələn, maliyyə siyasətinin

başqa bir sahə üzrə siyasətə, məsələn, təhsil siyasətinə necə təsir göstərdiyini (bu, öz növbəsində küçə mühitində olan uşaqlara təsir edir) anlamaq üçün sahələrarası yanaşma tətbiq etməlidir. Dövlətlər sahələrarası və dövlətlərarası əməkdaşlığı təşviq etməlidir.

## Qanunvericilik və siyasətə baxış

14. Dövlətlər hazırkı ümumi şərhdə təqdim olunan tövsiyələri əks etdirmək üçün qanun və siyasətlərin necə təkmilləşdirilə biləcəyini qiymətləndirməlidir. Dövlətlər təxirəsalınmaz şəkildə aşağıdakıları etməlidir: küçə mühitində olan uşaqlar və onların valideynləri və ya ailə üzvlərinə küçə həyatına görə birbaşa və ya dolayı şəkildə ayrı-seçkiliyə yol verən müddəaları ləğv etmək; uşaqların və onların ailələrinin kütləvi şəkildə tutulmasına və ya küçələrdən və ya ictimai yerlərdən yığışdırılmasına imkan verən və ya bunu dəstəkləyən hər hansı müddəaları ləğv etmək; zərurət olduqda, küçə mühitində olan uşaqlar üçün cinayət məsuliyyəti yaradan və onlara qeyri-mütənasib şəkildə təsir edən pozuntuları (məsələn, dilənçilik, komendant saatının pozulması, tüfeyli həyat sürmək, avaralıq və evdən qaçmaq) ləğv etmək; uşaqları kommersiya məqsədli cinsi istismara məruz qaldığına görə cinayət məsuliyyətinə cəlb edən pozuntuları, o cümlədən "əxlaqi pozuntuları" (məsələn, nikahdankənar cinsi əlaqə) ləğv etmək. Dövlətlər küçə mühitində olan uşaqlara konkret olaraq toxunan və uşaq hüquqları yanaşmasına əsaslanan, uşaq müdafiəsinə və ya uşaqlara dair normativ akt qəbul etməli və ya ona yenidən baxmalıdır. Bu normativ akt əlverişli siyasətlər, səlahiyyətlər, əməliyyat prosedurları, təlimatlar, xidmətlərin göstərilməsi, nəzarət və icra mexanizmləri vasitəsilə icra edilməli və küçə mühitində olan uşaqlar da daxil olmaqla əsas maraqlı tərəflərlə əməkdaşlıq şəraitində hazırlanmalıdır. Dövlətlər, qanuni səlahiyyət verilmiş mütəxəssislərin və xidmətlərin müdaxiləsinə imkan yaratmaq üçün zəruri olduğu halda, birgə iştiraka əsaslanan tədqiqatlardan istifadə edərək, bu uşaqların milli kontekstə uyğun siyasi və hüquqi təriflərini işləyib hazırlamalıdır. Lakin hüquqi təriflərin hazırlanması prosesi hüquq pozuntuların aradan qaldırılmasına yönələn tədbirlərin görülməsini gecikdir məməlidir.

## Dövlətin vəzifəsi və qeyri-dövlət subyektlərinin öhdəlikləri, onlar tərəfindən tənzimləmə və əlaqələndirmə

15. Küçə mühitində olan uşaqlara yönələn strategiyalar dövlət və qeyri-dövlət subyektlərinin rolunu qeyd etməlidir. Əsas öhdəliklərin daşıyıcısı kimi dövlətin rolu aşağıda V bölmədə təsvir olunur. Dövlətlər valideyn və himayəçilərə onların bacarıqları və maliyyə imkanları çərçivəsində və uşağın inkişaf edən

qabiliyyətlərini nəzərə alaraq, uşağın optimal inkişafı üçün zəruri olan yaşayış şəraitini təmin etməkdə kömək etmək öhdəliyi daşıyır (5, 18 və 27-ci maddələr). Dövlətlər, həmçinin, maliyyələşdirmə, akkreditasiya və tənzimləmə vasitəsilə, əlavə maraqlı tərəflər kimi vətəndaş cəmiyyətinə uşaq hüquqları yanaşması əsasında küçə mühitində olan uşaqlar üçün ixtisaslaşdırılmış xidmətlər təmin etməkdə dəstək göstərməlidir. Özəl sektor uşaq hüquqlarına dair öhdəliklərini yerinə yetirməlidir və dövlətlər bunu təmin etməlidir.[8] Dövlət və qeyri-dövlət subyektləri arasında əlaqələndirmə zəruridir. Dövlətlər xidmətlər göstərən qeyri-dövlət subyektlərinin Konvensiyanın müddəalarına uyğun olaraq fəaliyyət göstərməsi üçün hüquqi öhdəlik daşıyır.[9]

## Mürəkkəb məsələlərin həlli

16. Strategiyalar struktur əsaslı bərabərsizliklərdən tutmuş ailə zorakılığına qədər dəyişən çoxsaylı səbəblərə toxunmalıdır. Onlar, həmçinin, təxirəsalınmaz şəkildə icra olunmalı məsələləri, məsələn, uşaqların kütləvi şəkildə tutulmasının və ya ictimai yerlərdən əsassız şəkildə yığışdırılmasının dayandırılmasını və kompleks sosial müdafiə kimi proqressiv qaydada icra olunmalı tədbirləri nəzərə almalıdır. Hüquq və siyasət, habelə xidmətlərin göstərilməsi sahələrində kompleks dəyişikliklərə əksər hallarda ehtiyac duyulur. Dövlətlər uşaqlıq dövründən sonra da insan hüquqlarının təmin edilməsini öhdəsinə götürməlidir. Xüsusilə, alternativ qayğı mühitində olan uşaqlar və küçə mühitində olan uşaqlar 18 yaşda yetkinlik dövrünə keçdikdə, onlar üçün dəstək və xidmətlərin qəfil dayanmasının qarşısını almaq üçün dövlətlər sonrakı tədbirlər üçün mexanizmlərin mövcudluğunu təmin etməlidir.

## Hərtərəfli uşaq müdafiəsi sistemləri

17. Qanunvericilik və siyasət çərçivəsində uşaq hüquqları yanaşması əsasında hərtərəfli uşaq müdafiəsi sistemləri üçün büdcə tərtibi, bu sistemlərin yaradılması və gücləndirilməsi qabaqlayıcı və cavab tədbirləri üzrə strategiyalar üçün tələb olunan praktiki tədbirlərin əsasını təşkil edir. Uşaq müdafiəsi üzrə bu cür milli sistemlər küçə mühitində olan uşaqları da əhatə etməli və onların ehtiyac duyduqları xüsusi xidmətləri tam ehtiva etməlidir. Bu sistemlər bütün

[8] Bax: Özəl sektorun uşaq hüquqlarına təsirinə dair dövlətin öhdəliklərinə dair 16 (2013) nömrəli ümumi şərhin 8-ci bəndi.

[9] Bax: Konvensiyanın icrası üzrə ümumi tədbirlərə dair 5 (2003) nömrəli ümumi şərhin 42-44-cü bəndləri; erkən uşaqlıq dövründə uşaq hüquqlarının icrasına dair 7 (2005) nömrəli ümumi şərhin 32-ci bəndi; əlilliyi olan uşaqların hüquqlarına dair 9 (2006) nömrəli ümumi şərhin 25-ci bəndi və 16 nömrəli ümumi şərhin 25-ci bəndi.

müvafiq vəziyyətlərdə qayğı sistemi, o cümlədən profilaktika, erkən müdaxilə, küçələrdə məlumatlandırma işi, qaynar xətlər, sosial və tibbi yardım məntəqələri, günərzi qayğı mərkəzləri, müvəqqəti yaşayış yeri, ailənin birləşməsi, himayədar qayğı, müstəqil yaşayış və ya qısa və ya uzun müddətli qayğı seçimləri təmin etməlidir. Lakin bu vəziyyətlərin heç də hamısı küçə mühitində olan bütün uşaqlar üçün uyğun deyil. Məsələn, profilaktika və erkən müdaxilə tədbirləri güclü və zərərli küçə əlaqələri formalaşdırmaq prosesinin erkən mərhələlərində olan uşaqlar üçün prioritet olsa da, küçə şəraitində dünyaya gələn uşaqlar üçün uyğun deyil. Bəzi uşaqların qayğı müəssisələrində yaşamaq təcrübəsi olmaya bilər, digərləri üçün isə ailə birləşməsi uyğun və ya məqsədəuyğun deyil. Strategiyalar aydın göstərməlidir ki, uşaq hüquqları yanaşması hər bir vəziyyətə şamil olunmalıdır. Uşaq müdafiəsi sistemlərinə çıxışın əldə edilməsi ilə bağlı inzibati yüklər və gecikmələr azaldılmalıdır. Uşaqlar üçün uyğunlaşdırılmış və əlçatan formatlarda məlumatlar hazırlanmalı və küçə mühitində olan uşaqların uşaq müdafiəsi sistemlərini anlamasına və onlardan istifadə etməsinə dəstək göstərilməlidir.

## Uşaqla təmasda olan şəxslərin potensialının gücləndirilməsi

18. Dövlətlər küçə mühitində olan uşaqlarla birbaşa və ya dolayı təmasda ola biləcək bütün mütəxəssislər üçün siyasətlərin hazırlanması, hüquq-mühafizə, ədliyyə, təhsil, səhiyyə, sosial iş və psixologiya kimi sahələrdə uşaq hüquqları, uşaqların müdafiəsi və küçə mühitində olan uşaqların yerli konteksti ilə bağlı keyfiyyətli ilkin və ixtisasartırma təhsilinə sərmayə qoymalıdırlar. Bu təhsil qeyri-dövlət subyektlərinin təcrübəsinə əsaslana bilər və müvafiq təhsil müəssisələrinin kurrikulumuna inteqrasiya edilməlidir. Öz xidməti vəzifələrinin xüsusi bir hissəsi kimi küçə mühitində olan uşaqlarla işləyən mütəxəssislər, məsələn, küçələrdə işləyən sosial işçilər və polis xidmətinin ixtisaslaşmış uşaq müdafiəsi bölmələri üçün uşaq hüquqları yanaşması, psixososial dəstək və uşaqların hüquq və imkanlarının genişləndirilməsi üzrə əlavə müfəssəl təlim tələb olunur. "Autriç gəzintiləri" (əhatə edilməsi çətin qruplarla birbaşa əlaqə qurmaq üçün) və "küçə gəzintiləri" yerində təlimin önəmli metodlarıdır. İlkin və ixtisaslaşma hazırlığı münasibət və davranışlarda dəyişiklikləri, habelə biliklərin ötürülməsi və bacarıqların inkişaf etdirilməsini əhatə etməli və sektorlararası əməkdaşlığı və tərəfdaşlığı təşviq etməlidir. Milli və yerli hökumətlər sosial işçilərin, o cümlədən küçələrdə işləyən işçilərin erkən aşkarlama işində, risk altında olan uşaqları olan ailələrə və küçə mühitində olan uşaqlara dəstəyin təmin edilməsində oynadıqları vacib rolu başa düşməli və dəstəkləməlidir. Əməliyyat prosedurlarının, nümunəvi təcrübələr üzrə təlimatların, strateji

direktivlərin, planların, fəaliyyət standartlarının və nizam-intizam qaydalarının əməkdaşlıq şəraitində hazırlanmasına peşəkar işçilər cəlb olunmalı və onların qeyd olunanları praktiki şəkildə icra etməsinə dəstək göstərilməlidir. Dövlətlər küçə mühitində olan uşaqlarla birbaşa və ya dolayı təmas quran digər maraqlı tərəflər, məsələn, nəqliyyat işçiləri, KİV nümayəndələri, icma və dini/mənəvi rəhbərlər və özəl sektor subyektləri üçün maarifləndirmə və hazırlığın təmin edilməsinə kömək etməlidir. Qeyd olunan subyektlər "Uşaq hüquqları və biznes prinsipləri"ni qəbul etməyə stimullaşdırılmalıdır.[10]

## Xidmətlərin təqdim olunması

19. Dövlətlər küçə mühitində olan uşaqların səhiyyə və təhsil kimi əsas xidmətlərə, eləcə ədliyyə, mədəniyyət, idman və məlumat xidmətlərinə çıxış əldə etmək qabiliyyətini təmin etmək üçün tədbirlər görməlidir. Dövlətlər uşaq müdafiəsi sistemlərinin yerli küçə əlaqələri barədə kifayət qədər məlumatlı olan və uşaqların ailə, yerli icma xidmətləri və cəmiyyətin daha geniş təbəqələri ilə yenidən birləşməsinə kömək edə biləcək hazırlıq keçmiş sosial işçiləri cəlb etməklə küçələrdə ixtisaslaşdırılmış xidmətlər təqdim etməsini təmin etməlidir. Bu, uşaqların küçə ilə əlaqələrindən imtina etməli olduğunu mütləq olaraq nəzərdə tutmur. Belə ki, bu müdaxilə onların hüquqlarını təmin etməlidir. Profilaktika, erkən müdaxilə və küçədə dəstək xidmətləri bir-birini gücləndirən elementlərdir və effektiv uzunmüddətli və hərtərəfli strategiya çərçivəsində qayğı sistemi təşkil edir. Dövlətlər əsas öhdəlik daşıyıcıları olsa da, vətəndaş cəmiyyətinin fəaliyyəti innovativ və fərdiləşdirilmiş xidmətlərin təqdim hazırlanmasında və təqdim olunmasında dövlətin səylərini tamamlaya bilər.

## Yerli hökumət səviyyəsində icra

20. Uğurlu təşəbbüslər yerli mühitlərin tam şəkildə başa düşülməsindən və uşaqlara fərdi dəstəyin göstərilməsindən asılıdır. Təşəbbüslərin miqyasını genişləndirərkən, bu prosesdə uşaqları itirməmək üçün diqqətli olmaq lazımdır. Dövlətlər çox zaman yerli təcrübəyə malik vətəndaş cəmiyyəti təşkilatlarının rəhbərlik etdiyi, adekvat büdcəyə malik, kiçik və çevik, uşaq hüquqlarına əsaslanan yerli səviyyəli, tərəfdaşlığa əsaslanan və ixtisaslaşmış müdaxilələri təşviq etməli və dəstəkləməlidir. Bu müdaxilələr yerli hökumətlər tərəfindən əlaqələndirilməli və milli uşaq müdafiəsi sistemi vasitəsilə dövlət tərəfindən dəstəklənməlidir. Onlar potensialın gücləndirilməsinə yönələn resurslar və təşkilati bacarıqlar üçün özəl sektorun dəstəyindən, sübutlara əsaslanan

[10] Bax: http://childrenandbusiness.org. Həmçinin bax: 16 nömrəli ümumi şərh

qərarların qəbuluna imkan yaratmaq məqsədilə tədqiqat potensialının gücləndirilməsi üçün isə elmi dairələrin dəstəyindən faydalana bilər. Uşaqların maraqlarını nəzərə alan şəhərlər və icmalar küçə mühitində olan uşaqların qəbuluna meylli mühitin formalaşmasına töhfə verir və onlar üçün sosial çevrələr və icma əsaslı müdafiə sistemləri üçün əsas təmin edir. Küçə mühitində olan uşaqların yerli, mərkəzsizləşdirilmiş, "aşağıdan-yuxarı" prinsipinə əsaslanan planlaşdırma proseslərində iştirakına dəstək göstərilməlidir.

## Monitorinq və hesabatlılıq

21. Qanunvericiliyin, siyasətlərin və xidmətlərin səmərəli icrası aydın, şəffaf və ciddi şəkildə icra edilən monitorinq və hesabatlılıq mexanizmlərindən asılıdır. Dövlətlər küçə mühitində olan uşaqların başqa mexanizmlərlə yanaşı, sosial hesabatlılıq mexanizmlərində, məsələn, dövlət və qeyri-dövlət subyektlərinin koalisiyalarında, küçə mühitində olan uşaqlara xüsusi diqqət yetirməklə dövlət siyasətinin monitorinqini aparan komitə və ya işçi qruplarda iştirakına dəstək göstərməlidir. Konvensiyanın təbliği və icrasının monitorinqi üçün müstəqil milli insan hüquqları institutları,[11] məsələn, uşaq hüquqları üzrə ombudsmanlar küçə mühitində olan uşaqlar üçün asanlıqla əlçatan olmalıdır.

## Ədalət mühakiməsinə və hüquqi müdafiə vasitələrinə çıxış

22. İnsan hüquqları pozuntularının qurbanı olmuş və ya bu pozuntulardan zərər çəkmiş küçə mühitində olan uşaqlar hüquqi təmsilçilik də daxil olmaqla təsirli hüquqi və digər müdafiə vasitələrinə çıxış hüququna malikdir. Bura uşaqların özləri tərəfindən və/yaxud onları təmsil edən böyüklər tərəfindən fərdi şikayət mexanizmlərinə çıxış, eləcə də hüquqların bərpası üçün yerli və milli səviyyələrdə məhkəmə və qeyri-məhkəmə mexanizmlərinə, o cümlədən müstəqil insan hüquqları institutlarına çıxış daxildir. Daxili hüquqi müdafiə vasitələri tükəndikdə, müvafiq beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Konvensiyanın Fakultativ Protokolu tərəfindən kommunikasiya proseduruna dair təşkil olunmuş prosedura çıxış olmalıdır. Zərərin əvəzləşdirilməsi tədbirlərinə restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və hüquq pozuntularının təkrarlanmaması zəmanəti daxil ola bilər.[12]

[11] Uşaq hüquqlarının təşviqində və müdafiəsində milli insan hüquqları institutlarının roluna dair 2 (2002) nömrəli ümumi şərhin 2 və 15-ci bəndləri.

[12] Bax:www.ohchr.org/EN/ProfessionalInterest/Pages/RemedyAndReparation.aspx.

## Məlumatların toplanması və tədqiqatlar

23. Elmi dairələr, vətəndaş cəmiyyəti və özəl sektorla tərəfdaşlıq yolu ilə, dövlətlər küçə mühitində olan uşaqlar üçün məlumatlar toplamaq və təsnifləşdirilmiş məlumatları bölüşmək üçün sistemli, hüquqlara hörmətlə yanaşan, birgə iştiraka əsaslanan mexanizmlər hazırlamalıdır. Dövlətlər bu cür məlumatların toplanması və istifadəsi zamanı bu uşaqların stiqmaya və zərərə məruz qalmamasını təmin etməlidir. Küçə mühitində olan uşaqlara dair məlumatların toplanması uşaqlarla bağlı milli məlumat toplama prosesinə inteqrə edilməli, milli məlumatların yalnız ev təsərrüfatı tədqiqatlarına əsaslanmamasını, ev təsərrüfatı mühitindən kənarda yaşayan uşaqları da əhatə etməsini təmin etməlidir. Küçə mühitində olan uşaqlar tədqiqatların məqsəd və proqramlarının müəyyən edilməsində, siyasətlərin hazırlanması prosesində mənbə kimi istifadə üçün məlumatların toplanması, təhlil və tədqiqat nəticələrinin yayılmasında, eləcə də ixtisaslaşdırılmış müdaxilə tədbirlərinin planlaşdırılmasında iştirak etməlidir.[13] Küçə şəraiti sürətlə dəyişir və siyasət və proqramların öz aktuallığını saxlaması üçün dövri olaraq tədqiqatlar aparılmalıdır.

# V. Konvensiyanın küçə mühitində olan uşaqlara dair əsas maddələri

## Ümumi məlumat

24. Konvensiya və onun fakultativ protokollarında təsbit olunan bütün hüquqlar bütün uşaqlar üçün olduğu kimi, küçə mühitində olan uşaqlar üçün də qarşılıqlı əlaqəli və bölünməzdir. Hazırkı ümumi şərh Komitənin bütün digər ümumi şərhləri ilə birgə oxunmalıdır. Hazırkı ümumi şərhdə əsas diqqət küçə mühitində olan uşaqlar üçün xüsusi əhəmiyyəti olan və Komitənin daha əvvəlki ümumi şərhlərində xüsusi diqqət yetirmədiyi maddələrə yetirilir. Məsələn, zorakılıq, təhsil, yuvenal ədliyyə və səhiyyə ilə bağlı müddəalar açıq-aşkar əhəmiyyətli olsa da, burada onlarla bağlı ümumi şərhlərə nisbətən qısa istinadlar edilir. Bəzi digər maddələr isə küçə mühitində olan uşaqlara təsirləri səbəbilə və Komitə tərəfindən daha əvvəl ətraflı şəkildə nəzərdən keçirilmədiyi üçün daha diqqətlə nəzərdən keçirilir. Aşağıda seçilmiş maddələr küçə mühitində olan uşaqlar üçün mülki və siyasi hüquqların sosial, iqtisadi və mədəni hüquqlarla müqayisədə üstünlük təşkil etdiyini ehtiva etmir.

[13] Bax: BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (OHCHR), "A Human Rights-Based Approach To Data", burada: www.ohchr.org/Documents/Issues/HRIndicators/GuidanceNoteonApproachtoData.pdf.

## A. Uşaq hüquqları yanaşması üçün ümumi əhəmiyyət kəsb edən maddələr

### Ayrı-seçkiliyə yol verilməməsinə dair 2-ci maddə

*Sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər əlamətinə görə ayrı-seçkiliyə yol verməmə*

25. Dövlətlər öz yurisdiksiyaları daxilində heç bir formada ayrı-seçkiliyə yol vermədən hər bir uşaq üçün Konvensiyada təsbit olunan hüquqlara hörmət etməli və onları təmin etməlidir. Lakin uşaqların küçə mühitinə düşməsinin əsas səbəblərindən biri ayrı-seçkilikdir. Sonra isə uşaqlar küçə ilə əlaqələrinə görə, yəni sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər əlamətinə görə ayrı-seçkiliyə məruz qalır ki, bu da ömürlük mənfi nəticələrə səbəb olur. Komitə Konvensiyanın 2-ci maddəsi çərçivəsində "digər əlamət" anlayışını şərh edərkən, buraya uşağın və ya onun valideynlərinin və digər ailə üzvlərinin küçə həyatını əhatə etdiyini hesab edir.

*Sistemdən qaynaqlanan ayrı-seçkilik*[14]

26. Ayrı-seçkilik birbaşa və ya dolayı ola bilər.[15] Birbaşa ayrı-seçkiliyə dilənçilik, tüfeyli həyat sürmə, avaralıq, evdən qaçma və ya sağ qalmaq üçün törədilən hərəkətlərin qarşısını almaq üçün repressiv xarakterli tədbirləri ehtiva edən "evsizliklə mübarizə"yə yönələn qeyri-mütənasib siyasət yanaşmaları, məsələn, status əsaslı hüquq pozuntularına görə cinayət məsuliyyətinin müəyyən edilməsi,[16] küçələrin təmizlənməsi və ya kütləvi tutmalar və polis tərəfindən məqsədyönlü zorakılıq, təzyiq və hədə-qorxu ilə tələb etmə daxildir. Birbaşa ayrı-seçkiliyə aşağıdakılar daxil ola bilər: küçə mühitində olan uşaqların oğurluq və ya zorakılıqla bağlı məlumatlarının polis tərəfindən ciddi qəbul edilməməsi; yuvenal ədliyyə sistemləri daxilində ayrı-seçkiliyə yol verən rəftar; sosial işçilərin, müəllimlərin və tibb mütəxəssislərinin küçə mühitində olan uşaqlarla işləməkdən imtina etməsi; və məktəblərdə yaşıdları və müəllimləri tərəfindən təzyiqə, alçaltmaya və bullinqə məruz qoyulma. Dolayı ayrı-seçkiliyə başqa vasitələrlə yanaşı, ödəniş tələb etməklə və ya şəxsiyyəti təsdiq edən sənədlərin təqdim edilməsini tələb etməklə səhiyyə və təhsil kimi əsas xidmətlərdən təcrid olunma

[14] Bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin iqtisadi, sosial və mədəni hüquqlar sahəsində ayrı-seçkiliyə yol verilməməsi haqqında 20 (2009) nömrəli ümumi şərh, 12-ci bənd.

[15] Eyni mənbə, 10-cu bənd.

[16] Bax: Konvensiyanın kontekstində yeniyetmələrin sağlamlığı və inkişafına dair 4 (2003) nömrəli ümumi şərhin 12-ci bəndi və yuvenal ədliyyə sistemində uşaq hüquqlarına dair 10 (2007) nömrəli ümumi şərhin 8-9-cu bəndləri

ilə nəticələnə biləcək siyasətlər daxildir. Küçə mühitində olan uşaqlar əsas xidmətlərdən təcrid olunmasa belə, onlar bu cür sistemlərin daxilində təcrid oluna bilərlər. Uşaqlar ayrı-seçkiliyin çoxsaylı və kəsişən formaları ilə, məsələn, cins, cinsi oriyentasiya və gender kimliyi/ifadəsi, əlillik, irq, etnik mənsubiyyət, yerli xalqlara mənsubluq,[17], miqrant statusu və digər azlıqlara mənsubluq əlamətlərinə görə ayrı-seçkiliklə üzləşirlər. Küçə mühitində olan uşaqlar arasında xüsusilə azlıqlar çox vaxt üstünlük təşkil edir. Ayrı-seçkiliyə məruz qalan uşaqlar zorakılıq, sui-istifadə, istismar, cinsi yolla ötürülən xəstəliklər, o cümlədən İİV-ə qarşı müdafiəsizdirlər və onların sağlamlığı və inkişafı daha böyük risk altına düşür.[18] Dövlətlərə xatırladılır ki, ayrı-seçkiliyə məruz qalmamaq hüququna təminat verilməsi təkcə ayrı-seçkiliyin bütün formalarını qadağan etməklə bağlı passiv öhdəlik deyil, həm də bütün uşaqların Konvensiyada təsbit olunan hüquqlardan faydalanması üçün effektiv bərabər imkanların təmin edilməsinə yönələn adekvat proaktiv tədbirlər tələb edir. Bunun üçün real bərabərsizlik vəziyyətinin aradan qaldırılmasına yönələn pozitiv tədbirlər tələb olunur.[19] Sistemdən qaynaqlanan ayrı-seçkilik qanunvericilik və siyasət dəyişikliklərinə qarşı həssas olduğundan, onlar vasitəsilə həll oluna bilər. Küçə mühitində olan uşaqlar cəmiyyətdə qarşılaşdıqları ayrı-seçkilik və mənfi münasibətləri xüsusi narahatlıq doğuran məsələ kimi vurğulayaraq, bununla mübarizə üçün daha çox maarifləndirmə və öyrədici tədbirlərin olmasını xahiş etdilər.

*Ayrı-seçkiliyin aradan qaldırılması*

27. Dövlətin konstitusiyasının, qanunlarının və siyasətlərinin küçə həyatına görə ayrı-seçkiliyə yol verməməsini təmin etməklə və davamlı qərəzdən əziyyət çəkən və pozitiv tədbirlərə ehtiyacı olan bir qrup kimi küçə mühitində olan uşaqlara kifayət qədər diqqət yetirməklə, ayrı-seçkilik formal olaraq aradan qaldırılmalıdır.[20] Küçə mühitində olan uşaqların de-fakto bərabərliyini sürətləndirmək və ya əldə etmək üçün zəruri olan müvəqqəti xüsusi tədbirlər ayrı-seçkilik hesab edilməməlidir. Dövlətlər aşağıdakıları təmin etməlidirlər: küçə mühitində olan uşaqların qanun qarşısında bərabər olmasını; küçə həyatına görə hər cür ayrı-seçkiliyin qadağan olunmasını; ayrı-seçkiliyə və təqiblərə[21] təhrikin aradan qaldırılmasını; küçə mühitində olan uşaqlar və onların ailələrinin əsassız

[17] Bax: Konvensiyaya əsasən yerli xalqlara mənsub olan uşaqlar və onların hüquqlarına dair 11 (2009) nömrəli ümumi şərh.

[18] Bax: 4 nömrəli ümumi şərhin 6-cı bəndi və 3 nömrəli ümumi şərhin 7-ci bəndi

[19] Bax: 14 nömrəli ümumi şərhin 41-ci bəndi.

[20] Bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin 20 nömrəli ümumi şərhi, 8-ci bənd.

[21] Eyni mənbə, 7-ci bənd.

olaraq əmlaklarından məhrum edilməməsini; və komendant saatlarının qanuni, mütənasib olmasını və ayrı-seçkiliyə yol verməməsini. Dövlətlər, həmçinin, mütəxəssislərin, özəl sektorun və ictimaiyyətin münasibətlərini müsbət şəkildə dəyişdirmək məqsədilə, onları küçə mühitində olan uşaqların təcrübələri və hüquqları barədə məlumatlandırmalıdırlar. Dövlətlər nəzərəçarpan qarşılıqlı dialoq və qarşılıqlı fəaliyyət şəraitində, mütəxəssislər, icmalar, o cümlədən digər uşaqlar və cəmiyyətin daha geniş təbəqələri ilə küçə mühitində olan uşaqlar arasındakı əngəlləri və yanlış təsəvvürləri aradan qaldırmağa kömək edən, küçə mühitində olan uşaqların rəhbərlik etdiyi və ya onların cəlb olunduğu yaradıcı incəsənət, mədəniyyət və/və ya idman proqramlarının hazırlanmasına dəstək göstərməlidir. Buraya küçədə təşkil olunan sirk, teatr tamaşaları, musiqili proqramlar, incəsənət və idman oyunları daxil ola bilər. Dövlətlər uşaq hüquqları yanaşması əsasında məlumatlandırmaya və stiqmanın aradan qaldırılmasına yönələn məlumatları yaymaq və gücləndirmək üçün çap mediası, teleradio yayımı və sosial media ilə işləməlidir. İctimaiyyətin küçə mühitində olan uşaqların cinayət törətməsi ilə bağlı qorxusu çox vaxt mediadan qaynaqlanır və reallıqla qeyri-mütənasib olur. Kütləvi informasiya vasitələri uşaqların ləyaqətini, fiziki təhlükəsizliyini və psixoloji toxunulmazlığını qorumaq üçün dəqiq məlumat və sübutlardan istifadə etməyə və uşaqların müdafiəsi üzrə standartlara əməl etməyə fəal şəkildə təşviq edilməlidir.

## Uşaqların ali maraqlarına dair 3-cü maddənin 1-ci bəndi

28. Bu hüquqla bağlı öhdəliklər uşaq hüquqları yanaşmasının tərkib hissəsi kimi, küçə mühitində olan uşaqların tam fiziki, psixoloji və mənəvi toxunulmazlığını təmin etmək və onların insan ləyaqətini təşviq etmək üçün əsasdır. Bu uşaqlar xüsusilə həssas hesab edilir. Komitənin artıq qeyd etdiyi kimi, xüsusi həssas vəziyyətdə olan uşağın ali maraqları eyni həssas vəziyyətdə olan bütün uşaqların maraqları ilə eyni olmayacaqdır. Hakimiyyət orqanları və qərar qəbul edən şəxslər hər bir uşağın həssaslığının müxtəlif növlərini və dərəcələrini nəzərə almalıdır, çünki hər bir uşaq fərqlidir və hər bir vəziyyət uşağın fərqliliyinə uyğun olaraq qiymətləndirilməlidir. [22] Bu kontekstdə "həssaslıq" ayrı-ayrı küçə mühitində olan uşaqların sağ qalmaq və özlərini təmin etmək qabiliyyəti ilə birlikdə nəzərdən keçirilməlidir.

## Yaşamaq, sağ qalmaq və inkişaf etmək hüququna dair 6-cı maddə

*Yaşamaq hüququ*

[22] Bax: 14 nömrəli ümumi şərh, 75-76-cı bəndlər

29. Küçə mühitində olan uşaqlar digər risklərlə yanaşı, aşağıdakı risklərlə üzləşir: dövlət agentləri tərəfindən məhkəmədənkənar edamlar; yaşıdları və ya böyüklər tərəfindən qətl, o cümlədən məhkəməsiz, özbaşına cəzalandırma xarakterli qətl və cinayətkar şəxslər və dəstələrlə bağlılıq və ya onlar tərəfindən hədəfə alınma nəticəsində və dövlət belə cinayətlərin qarşısını almadıqda baş verən qətl; uşaq əməyinin təhlükəli formaları, yol-nəqliyyat hadisələri [23], narkotik vasitə və psixotrop maddələrdən sui-istifadə, kommersiya xarakterli cinsi istismar və təhlükəli cinsi vərdişlərlə əlaqəli, həyat üçün potensial təhlükəli şəraitə məruzqalma; və adekvat qidalanma, səhiyyə və sığınacaq əldə edilməməsi səbəbindən ölüm. Yaşamaq hüququ dar mənada şərh edilməməlidir. [24] Bu, fərdlərin qeyri-təbii və ya vaxtından əvvəl ölümünə səbəb olmaq üçün nəzərdə tutulmuş və ya gözlənilən hərəkət və hərəkətsizliklərdən azad olmaq və ləyaqətlə yaşamaq hüququna aiddir. 1990-cı ildə küçə mühitində olan üç uşaq və iki gəncin polis tərəfindən işgəncə verilib qətlə yetirilməsi ilə bağlı işdə, 1999-cu ildə Amerikalararası İnsan Hüquqları Məhkəməsi özbaşına həyatdan məhrumetmənin qeyri-qanuni adam öldürmə əməli ilə məhdudlaşmadığını, həm də ləyaqətlə yaşamaq hüququndan məhrumetməni də əhatə etdiyini qət etdi. Yaşamaq hüququnun bu konsepsiyası təkcə mülki və siyasi hüquqlara deyil, həm də iqtisadi, sosial və mədəni hüquqlara şamil edilir. Küçə uşaqları da daxil olmaqla, ən həssas vəziyyətdə olan insanların müdafiəsi zərurəti şübhəsiz ki, yaşamaq hüququnun elə bir şərhini tələb edir ki, bura ləyaqətli həyat üçün minimum şəraitin yaradılması daxil olsun.[25]

30. Komitə artıq vurğulamışdır ki, mütləq yoxsulluq şəraitində böyümək uşaqların sağ qalmasına və onların sağlamlığına təhlükə yaradır və onların təməl həyat keyfiyyətini pozur.[26]

*Sağ qalmaq və inkişaf etmək hüququ*

31. Komitə, dövlətləri “inkişaf” anlayışını uşağın fiziki, əqli, mənəvi, əxlaqi, psixoloji və sosial inkişafını əhatə edən kompleks məfhum kimi şərh etməyə çağırır. Küçə mühitində olan uşaqların ictimai yerlərdə sağ qalmaq və inkişaf etmək üçün seçə biləcəkləri fəaliyyət və davranışlar məhduddur. Dövlətlərin 6-

[23] Bax: 4 nömrəli ümumi şərh, bənd 21.

[24] Konvensiyanın hazırlıq işi göstərir ki, 6-cı maddədə nəzərdə tutulmuş yaşamaq, sağ qalmaq və inkişaf hüquqları bir-birini tamamlayan və bir-birini istisna etməyən hüquqlar kimi başa düşülür və bu maddə pozitiv öhdəliklər yaradır (E/CN.4/1988/28).

[25] Birgə rəy, *Villagrán Morales və digərləri Qvatemalaya qarşı* , Amerikalararası İnsan Hüquqları Məhkəməsi, 19 noyabr 1999. Burada: www.corteidh.or.cr/docs/casos/articulos/seriec_63_ing.pdf.

[26] Bax: 7 nömrəli ümumi şərh, 26-cı bənd.

cı maddədən qaynaqlanan öhdəlikləri hətta uşaqların davranış və həyat tərzləri müəyyən icmaların və ya cəmiyyətlərin müəyyən bir yaş qrupu üçün hakim mədəniyyət normalarına uyğun olaraq məqbul hesab etdiyi şeylərə uyğun gəlməsə belə, bu davranış və həyat tərzlərinə diqqətlə yanaşmağı şərtləndirir. Proqramlar yalnız küçə mühitində olan uşaqların reallıqlarını qəbul etdikdə təsirli ola bilər.[27] Müdaxilələr küçə mühitində olan uşaqların optimal inkişafına nail olmaq[28], onların cəmiyyətə müsbət töhfələrini artırmaq üçün onlara ayrı-ayrılıqda dəstək göstərməlidir.

*Ləyaqətli həyatın təmin edilməsi*

32. Dövlətlər aşağıdakı öhdəlikləri daşıyır: dövlətin rəhbərlik etdiyi zorakılıqdan çəkinməklə və sağ qalmağa yönələn davranışları və status əsaslı hüquq pozuntularına görə cinayət məsuliyyətini ləğv etməklə, küçə mühitində olan uşaqların ləyaqətinə və yaşamaq, sağ qalmaq və inkişaf etmək hüququna hörmət etmək; küçə mühitində olan uşaqları üçüncü şəxslərin vurduğu zərərlərdən qorumaq; və uşaq hüquqları yanaşması əsasında uzunmüddətli kompleks strategiyalar hazırlamaq və həyata keçirməklə onların yaşamaq, sağ qalmaq və inkişaf etmək hüquqlarını yerinə yetirmək, onların tam potensiallarına çatanadək inkişaf etməsini təmin etmək. Dövlətlər küçə mühitində olan uşaqlara kömək etmək üçün ailə üzvləri və ya dövlət və ya vətəndaş cəmiyyətinin sosial işçiləri, psixoloqlar, küçə işçiləri və ya mentorlar kimi etibarlı və dəstəyə meylli böyüklərə kömək etməlidir. Dövlətlər, həmçinin, küçələrdə ölən uşaqların ləyaqətini və onlara hörməti təmin etmək üçün dəfn xidmətlərinin göstərilməsinə dair prosedur və tədbirlər hazırlamalıdırlar.

## Dinlənilmək hüququna dair 12-ci maddə [29]

33. Küçə mühitində olan uşaqlar dinlənilməklə bağlı xüsusi maneələrlə üzləşirlər və Komitə, dövlətləri bu maneələri aradan qaldırmaq üçün proaktiv səylər göstərməyə çağırır. Dövlətlər və hökumətlərarası təşkilatlar küçə mühitində olan uşaqları aşağıdakı hüquqlarını həyata keçirmək üçün dəstəkləyici və əlverişli mühitlə təmin etməli, o cümlədən buna səy göstərən vətəndaş cəmiyyəti təşkilatlarına dəstək göstərməlidir: məhkəmə icraatı və inzibati icraat çərçivəsində dinlənilmək; öz təşəbbüslərini həyata keçirmək; və siyasət və proqramların konsepsiyasının hazırlanması, planlaşdırılması, icrası,

[27] Bax: 3 nömrəli ümumi şərh, 11-ci bənd.

[28] Bax: 5 nömrəli ümumi şərh, 12-ci bənd.

[29] Uşağın dinlənilmək hüququ haqqında 12 (2009) nömrəli ümumi şərh

əlaqələndirilməsi, monitorinqi, təhlili və yayılmasında (o cümlədən kütləvi informasiya vasitələri vasitəsilə) icma və milli səviyyələrdə tam iştirak etmək. Həyata keçirilən müdaxilə tədbirləri küçə mühitində olan uşaqlar üçün ən çox o zaman faydalı olur ki, uşaqlara barələrində qərar verilən obyekt kimi yanaşmaq əvəzinə, onlar ehtiyacların qiymətləndirilməsinə, həll yollarının hazırlanmasına, strategiyaların formalaşdırılmasına və həyata keçirilməsinə fəal cəlb olunur. Dövlətlər, həmçinin, qabaqlayıcı və cavab tədbirləri strategiyalarını hazırlayarkən, ailə və icma üzvləri, mütəxəssislər və vəkillər kimi müvafiq yetkinlik yaşına çatmış şəxsləri dinləməlidirlər. Müdaxilə tədbirləri küçə mühitində olan ayrı-ayrı uşaqlara öz hüquqlarını həyata keçirmək və inkişaf etməkdə olan qabiliyyətlərinə uyğun olaraq bacarıq, dözümlülük, məsuliyyətlilik və vətəndaşlıqlarını inkişaf etdirmək üçün dəstək olmalıdır. Dövlətlər küçə mühitində olan uşaqlara faydalı iştirak və təmsilçilik üçün platforma kimi çıxış edəcək uşaq təşkilatları və təşəbbüsləri formalaşdırmaqda dəstək göstərməli və buna təşviq etməlidir.[30] Məqsədəuyğun olduqda və lazımi şəkildə müdafiə edildikdə, küçə mühitində olan uşaqlar stiqma və ayrı-seçkiliyin azalması və digər uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq üçün öz təcrübələrini bölüşməklə məlumatlılığı artıra bilərlər.

## Lazımi tədbirlərin görülməsinə dair 4-cü maddə

34. 4-cü maddəyə əsasən, İştirakçı dövlətlər bu Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tədbirlərini, inzibati və digər tədbirləri görməlidir. Bu, küçə mühitində olan uşaqların da bariz şəkildə daxil olduğu ən əlverişsiz vəziyyətdə olan qruplara xüsusi diqqət yetirməklə, ayrı-seçkiliyə yol vermədən hər bir uşağa aid edilir.[31] Hər bir İştirakçı dövlətin minimum əsas öhdəliyi sosial, iqtisadi və mədəni hüquqların hər birinin ən azı minimum əsas səviyyələrini təmin etməkdir.[32] Dövlətlər bunun küçə mühitində olan uşaqlara şamil edilməsini təmin etməlidir. Resursların mövcud olmaması dövlətlərin bu əsas öhdəliyə əməl etməməsi üçün özlüyündə etibarlı arqument deyil. Komitənin artıq bəyan etdiyi kimi, uşaq hüquqları ilə bağlı qoyulan təxirəsalınmaz və minimum əsas öhdəliklər hətta iqtisadi böhran dövründə belə, heç bir retroqressiv tədbirlərlə pozulmamalıdır.[33] Dövlətlər iqtisadi böhran

[30] Bax: eyni mənbədə 128-ci bənd.

[31] Bax: 5 nömrəli ümumi şərhin 8-ci bəndi.

[32] Bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin İştirakçı dövlətlərin öhdəliklərinin xarakteri haqqında 3 (1990) nömrəli ümumi şərhinin 10-cu bəndi.

[33] Bax: uşaq hüquqlarının həyata keçirilməsi üçün dövlət büdcə vəsaitlərinin yönləndirilməsinə dair 19 (2016) nömrəli ümumi şərhin 31-ci bəndi.

zamanı, küçə mühitində olan uşaqların reqressiv tədbirlərin təsirinə məruz qalmamasını təmin etməlidir.

### Uşağın inkişaf edən qabiliyyətlərinə uyğun olaraq təlimatlandırılması və istiqamətləndirilməsinə dair 5-ci maddə

35. Preventiv fəaliyyəti gücləndirmək məqsədilə, dövlətlər valideynlərin, qohumların, qanuni himayəçilərin və icma üzvlərinin uşaqların yaşına və yetkinlik səviyyəsinə uyğun olaraq onların fikirlərini nəzərə almalarına kömək edərək, uşaqları təlimatlandırmaq və istiqamətləndirmək, uşağa inkişaf edə biləcəyi təhlükəsiz və dəstəkləyici mühit təmin etmək, eləcə də adekvat təlimatlandırma və istiqamətləndirmə şəraitində uşağı inkişaf etdikcə hüquqlarından daha çox istifadə edə bilən aktiv hüquq sahibi kimi tanımaq qabiliyyətlərini inkişaf etdirməlidirlər. Komitə artıq uşağın inkişaf edən qabiliyyətləri prinsipini aydınlaşdırmışdır: uşaq nə qədər çox bilirsə, təcrübədən keçiribsə və anlayırsa, valideyn və ya qanuni himayəçi də istiqamətləndirmə və təlimatlandırmanı o dərəcədə xatırlatma və məsləhətə, daha sonra isə bərabər səviyyəli tərəflər kimi fikir mübadilələrinə çevirməlidir.[34] Küçə mühitində olan uşaqlar üçün onların həyat təcrübələrinə hörmətlə yanaşan və xüsusilə həssas təlimatlandırma və istiqamətləndirmə tələb olunur. Küçə mühitində olan uşaqların əksəriyyəti ailələri ilə əlaqə saxlayır və bu ailə əlaqələrini gücləndirməyin effektiv yollarına dair artmaqda olan sübutlar mövcuddur. Küçə mühitində olan uşaqların valideynləri, qohumları və ya qanuni himayəçiləri ilə müsbət əlaqələri azdırsa və ya heç yoxdursa, o zaman 5-ci maddədə qeyd edildiyi kimi, icma üzvlərinin rolu daha güclü əhəmiyyət kəsb edir və vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqəsi olan etibarlı böyüklərin dəstəyinin də buraya daxil olduğu hesab edilir.

## B. Mülki hüquq və azadlıqlar

### Birləşmək və dinc toplaşmaq azadlığı hüququna dair 15-ci maddə

*Ümumi məlumat*

36. Küçə mühitində olan uşaqların yaşadığı reallıqlar uşaqlığın ənənəvi təriflərinə və ya konsepsiyalarına uyğun gəlmir. Onların digər uşaqlarla müqayisədə ictimai yerlərlə özünəməxsus əlaqələri vardır. Buna görə də, 15-ci maddəyə dövlət tərəfindən ictimai yerlərlə bağlı tətbiq olunan məhdudiyyətlər küçə mühitində

[34] Bax: uşağın dinlənilmək hüququna dair 12 (2009) nömrəli ümumi şərhin 84-cü bəndi və 14 nömrəli ümumi şərh 44-cü bəndi.

olan uşaqlara qeyri-mütənasib təsir göstərə bilər. Dövlətlər onların birləşmək və dinc toplaşmaq üçün siyasi və ictimai yerlərə çıxışdan ayrı-seçkilik şəraitində məhrum edilməməsini təmin etməlidirlər.

*Mülki və siyasi platforma*

37. Küçə mühitində olan uşaqlar üçün, məsələn, işləyən uşaqların birlikləri və uşaqların rəhbərlik etdiyi assosiasiyalar vasitəsilə öz hüquqlarını tələb etmək üçün birləşmə və dinc toplaşma vacibdir. Buna baxmayaraq, Komitə mütəmadi olaraq öz yekun qeydlərində uşaqlara öz fikirlərini səsləndirmək üçün əlçatan siyasi platformanın təmin edilməməsi ilə bağlı narahatlığını ifadə edib. Bu, küçə mühitində olan uşaqlar üçün xüsusilə məhduddur, belə ki, onlar çox zaman təşkilatı hüquqi qeydiyyatdan keçirməsi tələb olunacaq yetkinlik yaşına çatmış etibarlı bir şəxslə əlaqələrə malik olmur. Küçə mühitində olan uşaqlar birləşmə və dinc toplaşma təşəbbüslərini inkişaf etdirmək üçün sənədləri doldurmaq və məlumatlara çıxış əldə etməklə bağlı dəstəkdən məhrum ola bilərlər. Etiraz aksiyalarında və ya yığıncaqlarda sayı artırmaq üçün küçə mühitində olan uşaqlara iştirak müqabilində ödəniş edilə bilər. Onlar istismara qarşı müdafiəsiz ola və bu cür tədbirlərə qoşulmağın nəticələrindən xəbərsiz ola bilər. Bu da öz növbəsində, müdafiə və iştirak hüquqlarının tarazlaşdırılmasının zəruriliyi ilə bağlı mürəkkəb suallar doğurur. Bununla belə, Komitənin öz yekun qeydlərində ifadə etdiyi kimi, bu, onların birləşmək və dinc toplaşmaq hüquqlarını məhdudlaşdırmaq üçün bəhanə kimi istifadə edilməməlidir. 15-ci maddə dövlətlərdən küçə mühitində olan uşaqlara öz iştirak hüquqlarını həyata keçirmək və böyüklər tərəfindən cəlb olunma və manipulyasiyalara qarşı çıxmaq imkanı yaratmalıdır.

*İctimai yerlər*

38. Mülki və siyasi hüquqlar kontekstində birləşmək və dinc toplaşmaqla yanaşı, Komitə küçə mühitində olan uşaqların sağ qalmaq və inkişaf etmək hüquqlarını reallaşdırmaq (maddə 6), istirahət etmək, oynamaq və asudə vaxtını keçirmək (maddə 31),[35] şəbəkələr yaratmaq və sosial həyatlarını qurmaq məqsədilə və ümumilikdə həyatlarının əsas xüsusiyyəti kimi, ictimai qaydaya təhlükə yaratmadan ictimai yerlərdə bir yerə toplaşmaq seçiminə hörmətlə yanaşmağın vacibliyini vurğulayır. Küçə mühitində olan uşaqlar üçün bu cür toplaşmalar həyatın bir hissəsidir. Bunu hər zaman yemək, yatmaq və ya istirahət kimi ayrı-

[35] Bax: uşağın istirahət, asudə vaxt, oyun, əyləncə fəaliyyətləri, mədəni həyat və incəsənət hüququ haqqında 17 (2013) nömrəli ümumi şərhin 21-ci bəndi.

ayrı fəaliyyətlərə ayırmaq mümkün olmur. Küçə mühitində olmayan uşaqlar üçün digərləri ilə birgəyaşayışın bu forması əsasən ev təsərrüfatı və ya məktəb kimi mühitlərdə baş verir. Küçə mühitində olan uşaqlar üçün isə bu, ictimai yerlərdə baş verir. Bu cür uşaqların birləşmək hüquqlarını həyata keçirə biləcəkləri təhlükəsiz yer olmalıdır. Burada bu hüquq Konvensiya ilə qorunan digər hüquqlarla birlikdə "ictimai məkanlarda başqaları ilə vaxt keçirmək" kimi şərh olunur. Komitə 31-ci maddə ilə əlaqədar, ictimai yerlərdə uşaqlara qarşı dözümlülüyün azalmasını araşdırıb.[36] Hazırkı ümumi şərhdə o, dözümlülüyün azalması ilə bağlı narahatlıqları uşaqların 31-ci maddədə nəzərdə tutulan məqsədlərdən başqa məqsədlər üçün ictimai yerlərdən istifadəsinə də aid edir.

*15-ci maddə üzrə məhdudiyyətlər*

39. 15-ci maddənin 2-ci bəndinə uyğun olaraq, polis müdaxiləsi və ya ictimai qayda ilə bağlı digər tədbirlərə yalnız o halda yol verilir ki, bu cür tədbirlər qanuna əsaslansın, kollektiv deyil, fərdi qiymətləndirməni ehtiva etsin, mütənasiblik prinsipinə uyğun olsun və ən az müdaxilə xarakterli seçim olsun. Bu cür tədbirlər qrupa və ya kollektiv əsasda tətbiq edilməməlidir[37]. Bu o deməkdir ki, önəmli siyasi, ictimai və ya idman tədbirləri kontekstində küçə uşaqlarına təzyiq, zorakılıq tətbiqi, onların kütləvi şəkildə tutulması və küçədən yığışdırılması və ya onların birləşmək və dinc toplaşmaq hüquqlarını məhdudlaşdıran və ya müdaxilə edən digər müdaxilə tədbirləri 15-ci maddənin 2-ci bəndinə ziddir. Küçə mühitində olan uşaqların rəhbərlik etdiyi, qanuni şəkildə yaradılmış işləyən uşaqların birliklərini və təşkilatlarını tanımamaq və/və ya təşkilat yaratmaq üçün küçə mühitində olan uşaqların ağlabatan çıxışının olmadığı icazələri tələb etmək onlara qarşı ayrı-seçkilik təşkil edir və 15-ci maddənin 2-ci bəndinə uyğun deyil.

*İcra tədbirləri*

40. Dövlətlər küçə mühitində olan uşaqlara birləşdikləri və dinc şəkildə toplaşdıqları ictimai yerlərdə təzyiq göstərməməli və ya əsassız olaraq uzaqlaşdırmamalıdırlar. Bu hüququ pozanlara qarşı sanksiyalar tətbiq edilməlidir. Polis və təhlükəsizlik qüvvələrinin küçə mühitində olan uşaqların hüquqlarına hörmət şəraitində ictimai qaydanı təmin etmək üçün potensialının artırılması

[36] Eyni mənbə, 37-ci bənd.

[37] Bax: kimsəsiz və ayrı düşmüş uşaqlarla onların öz doğma ölkələrindən kənarda rəftar haqqında 6 (2005) nömrəli ümumi şərhin 18-ci bəndi. Əvvəlcə, beynəlxalq sərhədi keçən kimsəsiz və ayrı düşmüş uşaqlarla bağlı hazırlanmış bu təfsiri Komitə hazırkı ümumi şərhdə küçə mühitində olan bütün uşaqlara şamil edir.

üçün xüsusi hazırlıq tələb olunur.[38] 15-ci maddənin 2-ci bəndinə əməletməni təmin etmək üçün yerli hakimiyyət orqanları tərəfindən qəbul edilmiş normativ aktlara yenidən baxılmalıdır. Dövlətlər aşağıdakı kimi pozitiv tədbirləri dəstəkləməlidir: uşaq hüquqları barədə maarifləndirmə və həyat bacarıqlarının inkişaf etdirilməsi vasitəsilə küçə mühitində olan uşaqların hüquq və imkanlarını genişləndirmək; maraqlı tərəfləri bu uşaqların birləşmə və toplaşma vasitəsilə ifadə etdiyi fikirləri qərarların verilməsi zamanı qəbul etməyə hazırlamaq; və bu uşaqların icmadakı digər uşaqlarla birlikdə istirahət, asudə vaxt, idman, incəsənət və mədəniyyətlə bağlı fəaliyyətlərdə iştirakını təşviq etmək. Qanunvericilik küçə mühitində olan uşaqların birliklərinin və ya dinc toplantılarının 15-ci maddə çərçivəsində müdafiənin əhatə dairəsinə düşmək üçün rəsmi qeydiyyata alınmasını tələb etməməlidir.

*Doğumun qeydiyyatına dair 7-ci maddə və şəxsiyyətə dair 8-ci maddələr*

41. Şəxsiyyəti təsdiq edən sənədin olmaması küçə mühitində olan uşaqların təhsil, səhiyyə və digər sosial xidmətlər, ədalət mühakiməsi, vərəsəlik və ailə ilə birləşməklə bağlı hüquqlarının qorunmasına mənfi təsir göstərir. Dövlətlər bütün yaşlarda olan bütün uşaqlar üçün ən azı pulsuz, əlçatan, sadə və sürətli doğum qeydiyyatının müyəssər olmasını təmin etməlidirlər. Küçə mühitində olan uşaqlara şəxsiyyəti təsdiq edən qanuni sənədlərin alınması üçün proaktiv qaydada dəstək göstərilməlidir. Müvəqqəti həll yolu kimi, dövlətlər və yerli hökumətlər innovativ və çevik həllərə, məsələn, vətəndaş cəmiyyətinin işçiləri/ünvanları ilə əlaqələndirilmiş qeyri-rəsmi şəxsiyyət vəsiqələrinin təqdim edilməsinə və bununla da uşaqların bu müvəqqəti dövr ərzində əsas xidmətlərə və ədliyyə sistemi çərçivəsində müdafiəyə çıxış imkanı əldə etməsinə icazə verməlidir. Tez-tez yerini dəyişən və şəxsiyyəti təsdiq edən fiziki sənədi itməkdən, zədələnməkdən və ya oğurlanmaqdan qorumaq imkanı olmayan küçə mühitində olan uşaqların üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün innovativ həllər qəbul edilməlidir.

*İfadə azadlığına dair 13-cü maddə və məlumat əldə etmək hüququna dair 17-ci maddə*

42. Küçə mühitində olan uşaqların öz hüquqları haqqında məlumat əldə etmək, axtarmaq və yaymaq hüququ bu hüquqların praktiki olaraq başa düşülməsi və həyata keçirilməsi üçün çox vacibdir. Uşaq hüquqlarına dair yerli kontekstə uyğun və əlçatan maarifləndirmə uşaqların səslərinin eşidilməsi üçün onların

[38] Bax: 13 nömrəli ümumi şərhin 44-cü bəndi.

iştirakı qarşısındakı maneələri aradan qaldırmağa kömək edəcək. Küçə mühitində olan uşaqlar əlçatan və müvafiq kanallar vasitəsilə aşağıdakılarla bağlı dəqiq, yüksək keyfiyyətli və uşaqlara uyğun məlumatlara çıxışa malik olmalıdır: (a) insan hüquqlarının pozulması ilə əlaqədar dövlətin vəzifəsi və məsuliyyəti, eləcə də hüquqların bərpası üçün şikayət mexanizmləri; (b) zorakılıqdan müdafiə; (c) cinsi və reproduktiv sağlamlıq, o cümlədən ailə planlaşdırılması və cinsi yolla ötürülən infeksiyaların qarşısının alınması; (d) sağlam həyat tərzi, o cümlədən qida rasionu fiziki fəaliyyət; (e) təhlükəsiz və hörmətcil sosial və cinsi davranışlar; (f) qəzaların qarşısının alınması; və (g) spirtli içki, tütün, narkotik vasitələr və digər zərərli psixotrop maddələrdən sui-istifadənin mənfi təsirləri.

*Şəxsi həyatın toxunulmazlığı, şərəf və nüfuza dair 16-cı maddə*

43. Küçə mühitində olan uşaqlar ictimai yerlərdə fəaliyyət göstərməli olduqları üçün onlar şəxsi həyatın toxunulmazlığının məhdudluğu ilə üzləşə bilər. Özlərinin və ya valideynlərinin və ya ailəsinin küçə həyatına məruz qalması səbəbilə edilən ayrı-seçkilik onları 16-cı maddənin pozuntularına qarşı xüsusilə müdafiəsiz edir. Komitə küçələrdən məcburi çıxarılmanı Konvensiyanın 16-cı maddəsinin pozulması kimi tanıyır, İnsan Hüquqları üzrə Komitə isə keçmişdə bunu "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 17-ci maddəsinin pozulması kimi tanıyıb.[39] 27-ci bənddə stiqma və 60-cı bənddə polis tərəfindən ayrı-seçkiliyə yol verməyən və hörmətcil rəftara aid tövsiyələr şərəf və nüfuza dair istiqamət verir.

## C. Ailə mühiti və alternativ qayğı

### Ailə mühitindən məhrum olmuş uşaqların xüsusi müdafiə və yardım hüququna dair 20-ci maddə

*Qayğının növləri*

44. Küçə mühitində olan, əsas və ya əvəzedici himayəçiləri olmayan uşaqlar üçün dövlət faktiki himayəçidir və 20-ci maddəyə əsasən, müvəqqəti və ya daimi olaraq ailə mühitindən məhrum olmuş uşağı alternativ qayğı ilə təmin etməyə borcludur.[40] Qayğı növlərinə aşağıdakılar daxildir: uşaqlardan küçə əlaqələrindən imtina etmələrini və/və ya alternativ yaşayış yerlərinə köçməsini tələb etmədən və ya buna məcbur etmədən, etibarlı sosial işçi və ya həmyaşıd dəstəyi vasitəsilə küçələrdə olan uşaqlara praktiki və mənəvi dəstək; sosial və tibbi yardım

[39] Bax: CCPR/CO/83/KEN, 22-ci bənd və CCPR/C/BGR/CO/3, 24-cü bənd.

[40] 13 nömrəli ümumi şərhin 33 və 35-ci bəndləri.

məntəqələri və icma mərkəzləri/sosial mərkəzlər; gecə sığınacaqları; günərzi qayğı mərkəzləri; ümumi yataqxanalarda müvəqqəti yaşayış; himayədar qayğı; ailənin birləşməsi; və müstəqil yaşayış və ya uzun müddətli qayğı seçimləri, o cümlədən digərləri ilə yanaşı, övladlığa götürmə. Məsələn, təcridxanalarda və ya qapalı mərkəzlərdə azadlıqdan məhrumetmə heç vaxt müdafiə forması deyil.

*Uşaq hüquqları yanaşmasının tətbiqi*

45. Uşaqların küçədən alternativ qayğıya keçmə prosesində aktiv tərəf kimi hörmət edilmədiyi müdaxilə proqramları uğurlu olmur: çox zaman uşaqların qaçması və ya yerləşdirmələrin pozulması ilə əlaqədar onlar yenidən küçələrə qayıdırlar. Yerləşdirmələr o zaman uğursuz olur ki, küçə mühitində olan uşaqlar az tanıdıqları qohumları ilə yaşamaq üçün yad ərazilərə göndərilir. Alternativ seçimlərin hazırlanmasına və təmin edilməsinə uşaq hüquqları yanaşmasını tətbiq etməklə, dövlətlər uşaqların sağ qalmaq və/yaxud inkişaf etmək üçün küçə əlaqələrindən asılı olmağa və onların iradələrinə zidd olan yerləşdirməni qəbul etməyə məcbur olmamalarını təmin edəcəklər. Dövlətlər qanunvericilik, tənzimləmə və siyasət direktivləri vasitəsilə yerləşdirmə, qayğı planlarının hazırlanması və nəzərdən keçirilməsi və ailəyə ziyarətlərlə bağlı qərarların qəbulunda uşağın fikirlərinin öyrənilməsini və nəzərə alınmasını təmin etməlidir. [41] Dövlətlər son vasitə kimi müəssisələrə yerləşdirməni məhdudlaşdıran mövcud beynəlxalq parametrlərə hörmət etməli,[42] uşaqların lüzumsuz olaraq alternativ qayğıya yönləndirilməməsini təmin etməli və alternativ qayğı təmin edildiyi hallarda bunun uşaqların hüquq və maraqlarına cavab verən münasib şərtlər çərçivəsində həyata keçirilməsini təmin etməlidir.[43] Dövlətlər dövlət və vətəndaş cəmiyyəti tərəfindən idarə olunan sığınacaqların və obyektlərin təhlükəsiz və keyfiyyətli olmasını təmin etməlidir. Küçə mühitində olan uşaqların özləri ilə məsləhətləşərək ailə üzvlərinin yanına yerləşdirilmənin onların maraqlarına uyğun hesab edildiyi təqdirdə, hər iki tərəfdən diqqətli hazırlıq və nəzarət tələb olunur. Çox vaxt küçələrdən uzun müddətli yerləşdirməyə keçid mərhələsi tələb olunur, bu müddətin uzunluğu isə uşaqla onun fərdi işinə uyğun şəkildə müəyyən edilir. Alternativ qayğı müəssisələrinin olmaması səbəbindən uşaqların yerləşdirilməsi üçün polis məntəqələri və ya təcridxanalardan istifadə yolverilməzdir.

[41] Bax: 12 nömrəli ümumi şərhin 54-cü bəndi; 6 nömrəli ümumi şərhin 40-cı bəndi; və 7 nömrəli ümumi şərhin 36 (b) bəndi

[42] Bax: 3 nömrəli ümumi şərhin 35-ci bəndi.

[43] *Uşaqlara alternativ qayğıya dair rəhbər qaydalar*, Baş Assambleyanın 64/142 saylı qətnaməsi, əlavə.

## Valideynlərdən ayrı düşməklə bağlı 9-cu maddə

46.Küçə mühitində olan bir çox uşaqlar ailələri ilə birlikdə küçədə və ya ondan kənarda yaşayır və/yaxud ailə əlaqələrini qoruyur və bu əlaqələri qorumaqda onlara dəstək göstərilməlidir. Dövlətlər uşaqları ailələrindən yalnız ailələrin küçədə işləməsini və ya yaşamasını əsas gətirərək ayırmamalıdır. Eynilə, dövlətlər küçə mühitində olan uşaqların özlərinin dünyaya gətirdiyi körpələri və ya uşaqları onlardan ayırmamalıdır. Maddi və maliyyə xarakterli yoxsulluq və ya bu cür yoxsulluğa birbaşa və unikal şəkildə aid edilə bilən şərtlər heç vaxt uşağın valideyn himayəsindən alınması üçün yeganə əsas ola bilməz, lakin bu, ailəyə müvafiq dəstəyin göstərilməsi zərurətinin xəbərdaredici siqnalı kimi qəbul edilməlidir.[44] Uzunmüddətli ayrılığın qarşısını almaq üçün dövlətlər, məsələn, mövsümi məşğulluq üçün ilin müəyyən dövrlərində valideynləri miqrasiya edən uşaqlar üçün hüquqlara hörmət edən müvəqqəti qayğı variantlarını dəstəkləyə bilər.

## Qayğı və müdafiə müəssisələri, xidmətləri və obyektləri üçün standartlara dair 3-cü maddənin 3-cü bəndi və yerləşdirmələrin vaxtaşırı nəzərdən keçirilməsinə dair 25-ci maddə

47. Uşaqların qayğı və müdafiə hüquqlarının təmin edilməməsi nəticəsində onların küçə mühitinə düşməsinin qarşısını almaq və artıq küçə mühitində olan uşaqların xeyrinə, dövlət və qeyri-dövlət xidmətlərinin yaradılması, saxlanması və keyfiyyətinin monitorinqi vacibdir. Dövlətlər keyfiyyətli, hüquqlara hörmət edən xidmətlər təqdim etməli və vətəndaş cəmiyyəti təşkilatlarının da bunları etməsinə dəstək göstərməlidir. Dövlət küçə mühitində olan uşaqlar üçün qeyri-dövlət müəssisələri, xidmətləri və obyektlərini dəstəkləməli, resurslarla təmin etməli, akkreditasiya etməli, tənzimlənməli və onların fəaliyyətini izləməlidir. Bu cür xidmətlərə cəlb olunan kadrlar 18-ci bəndə uyğun olaraq təlim keçməlidirlər.

## Valideyn məsuliyyətinə dair 18-ci maddə

48. Uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq və artıq küçə mühitində olan uşaqlar üçün ailə birləşməsi proqramlarını gücləndirmək üçün valideynlərə və qanuni himayəçilərə dəstək vacibdir. Dövlətlər valideynlərə və qanuni himayəçilərə uşaq tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirməkdə lazımi köməklik göstərmək, eləcə də uşaqlara qayğı üçün müəssisələrin, obyektlərin və xidmətlərin inkişafını təmin etmək öhdəliyi daşıyır. Dövlətlər riskli vəziyyətdə olan ailələrə təzyiq göstərən struktur xarakterli qüvvələrin aradan qaldırılması

[44] Bax: 14 nömrəli ümumi şərhin 62-ci bəndi.

üçün tədbirlər görməlidir. Həll edilməli əsas məsələlərə aşağıdakılar daxildir: yoxsul qəsəbələrdə hüquqlara əsaslanan yanaşmadan istifadə edərək icmanın inkişafının yaxşılaşdırılması; hərtərəfli iqtisadi və sosial təhlükəsizlik şəbəkələrinin yaradılması; təhlükəsiz və sərfəli günərzi qayğı mərkəzləri və digər ixtisaslaşdırılmış xidmətlərin təqdim edilməsi; və ailələr üçün adekvat mənzil təminatı və gəlir mənbələrinə çıxışın yaxşılaşdırılması. Struktur və siyasət əsaslı yanaşmalardan əlavə, həssas qruplara daxil olan ailələr yaxşı təlim keçmiş mütəxəssislərin köməyi ilə onların fərdi hallarına uyğun həll yollarına ehtiyac duyurlar. Dövlətlər uşaq hüquqları yanaşmasından istifadə edərək, küçə mühitində olan uşaqların vəziyyətini kəskinləşdirən şərtlərin nəsillərarası ötürülməsini dayandırdığı sübut edilmiş ailələrə dəstək proqramlarına sərmayə qoymalı və onları genişləndirməlidir. Dövlətlər küçə mühitinə düşmə təhlükəsi olan uşaqları olan ailələri stiqmaya səbəb olmayacaq formada prioritetləşdirərək, bütün valideynlər və himayəçilər üçün uşaq hüquqları və pozitiv valideynlik mövzusunda hərtərəfli maarifləndirmə təmin etmək üçün tədbirlər görməlidir. Bu maarifləndirməyə uşaq hüquqları, o cümlədən uşaqları dinləmək və onların fikirlərini qərar qəbul etmə prosesinə daxil etmək üçün istifadə edilə biləcək üsullar, pozitiv intizam bacarıqları, münaqişələrin qeyri-zorakı həlli və valideynə bağlılıq daxil olmaqla pozitiv uşaq tərbiyəsi; və erkən uşaqlıq dövrünün inkişafı daxil olmalıdır. Həmçinin bax: 35-ci və 49-cu bəndlər.

## D. Adekvat yaşayış səviyyəsi

### Adekvat yaşayış səviyyəsi hüququna dair 27-ci maddə

*Valideynlərə, himayəçilərə və uşaqlara dəstək*

49. 27-ci maddənin 3-cü bəndinə uyğun olaraq, dövlətlər uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq və artıq küçə mühitində olan uşaqların hüquqlarını təmin etmək məqsədilə bütün uşaqların fiziki, əqli, mənəvi və əxlaqi inkişaf üçün adekvat yaşayış səviyyəsinə malik olmasını təmin etməlidirlər. Dövlətlər valideynlərə və uşağa cavabdeh olan digər şəxslərə bu hüququn həyata keçirilməsində kömək etmək üçün müvafiq tədbirlər görməli və ehtiyac olduqda, xüsusilə qidalanma, geyim və mənzil təminatı ilə bağlı maddi yardım və dəstək proqramları təmin etməlidir Bu göstərişlər dövlətlərin mülahizəsinə yer qoymur. Yuxarıda göstərilənlərin milli kontekstə uyğun olaraq və iştirakçı dövlətlərin imkanları daxilində həyata keçirilməsi 4-cü maddə ilə birgə götürülməklə (yəni, iştirakçı dövlətlərin mövcud resurslarının maksimum həddi çərçivəsində və zərurət olduqda beynəlxalq əməkdaşlıq çərçivəsində və xüsusilə dövlətlərin

sosial, iqtisadi və mədəni hüquqların təmin edilməsi ilə bağlı minimum əsas öhdəliyi yerinə yetirmək öhdəlikləri ilə əlaqədar) şərh edilməlidir. Maddi yardıma gəldikdə, küçə mühitində olan uşaqlar dövlətin valideynlərə və himayəçilərə, xüsusən subsidiyalaşdırılan, adekvat mənzil təminatı və gəlir imkanları baxımından dəstəyi vasitəsilə, təhlükəsiz yaşayış yeri, qida, pulsuz və əlçatan tibbi xidmət və təhsil ehtiyacını prioritet kimi vurğulayırlar. 27-ci maddənin 3-cü bəndinin təfsiri valideynlərə və uşağa cavabdeh olan digər şəxslərə yardım tədbirləri ilə məhdudlaşmır. Zərurət əsasında maddi yardım və dəstək proqramlarının təmin edilməsi öhdəliyi həm də bilavasitə uşaqlara göstərilən yardım kimi də şərh edilməlidir. Bu, xüsusilə ailə əlaqələri olmayan və ya ailə əlaqələri zorakılıq xarakterli olan küçə mühitindəki uşaqlar üçün aktualdır. Xidmət formasında uşaqlara birbaşa maddi yardım ya dövlətin özü tərəfindən, ya da vətəndaş cəmiyyəti təşkilatlarına dövlət dəstəyi vasitəsilə həyata keçirilə bilər. Tək valideynli və yenidən qurulmuş ailələr üçün uşağın saxlanmasının təmin edilməsinə yönələn dövlət tədbirləri xüsusilə vacibdir (bax: maddə 27 (4)).

*Adekvat mənzil təminatı*

50. Mənzil hüququ 27-ci maddənin mühüm tərkib hissəsidir və küçə mühitində olan uşaqlar üçün xüsusilə aktualdır. Bu, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə tərəfindən ümumən hər hansı bir yerdə təhlükəsiz, dinc və ləyaqətlə yaşamaq hüququ kimi şərh edilmişdir[45]. Komitə izah edir ki, mənzil təminatına münasibətdə "adekvatlıq" anlayışı aşağıdakılara diqqət yetirilməsini tələb edir: yaşayış yerindən istifadə hüququnun təminatı; xidmətlərin, materialların, qurğuların və infrastrukturun mövcudluğu; sərfəlilik; yaşayışa yararlılıq; əlçatanlıq; yer; və mədəni baxımdan adekvatlıq. [46] Məcburi köçürmə praktikasından qeyri-mütənasib şəkildə əziyyət çəkənlər arasında uşaqlar da var. [47] Məcburi köçürmələr, o cümlədən qeyri-rəsmi və ya qeyri-qanuni mənzillərin sökülməsi yolu ilə həyata keçirilən məcburi köçürmələr uşaqların həyatının qeyri-stabilliyini daha da artıra, onları küçələrdə yatmağa məcbur edə və daha çox hüquq pozuntularına məruz qoya bilər. Küçə mühitində olan uşaqlarla məsləhətləşmələrin əsas mövzularından biri bəzi dövlət "sığınacaqlarının" qeyri-adekvatlığı və münasib olmaması və onlarda yüksək dərəcədə zorakılıq və təhlükəliliyin olmaması səbəbindən uşaqların küçələrdə

[45] Bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin adekvat mənzil hüququna dair 4 (1991) nömrəli ümumi şərhinin 7-ci bəndi.

[46] Eyni mənbə, 8-ci bənd

[47] Bax: İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin məcburi köçürmələrə dair 7 (1997) nömrəli ümumi şərhinin 10-cu bəndi.

olmağı üstün tutmasıdır.

*İcra tədbirləri*

51. Dövlətlər uşaqlar üçün daha yaxşı müdafiə təmin etmək və onların küçə mühitinə düşmə ehtimalını azaltmaq üçün bir vasitə kimi riskli vəziyyətlərdə olan ailələrin üzərindəki təzyiqi azaltmaq və onları gücləndirmək məqsədilə yoxsulluğun və gəlir bərabərsizliyinin struktur əsaslı səbəblərini aradan qaldırmaq istiqamətində tədbirlər görməlidirlər. Bu cür tədbirlərə aşağıdakılar daxildir: iqtisadi bərabərsizlikləri azaldan vergi və xərc siyasətlərinin yaradılması; ədalətli əmək haqqı ilə məşğulluğun və digər gəlir imkanlarının genişləndirilməsi; kənd və şəhər yerlərinin inkişafı üçün yoxsullara yönələn siyasətlərin yaradılması; korrupsiyanın aradan qaldırılması; uşaq yönümlü siyasətlərin yaradılması və büdcə tərtibi; yüksək miqrasiya səviyyəsi ilə tanınan ərazilərdə uşaq yönümlü yoxsulluğun azaldılması proqramlarının gücləndirilməsi; və adekvat sosial təminat və sosial müdafiənin təqdim olunması. Konkret nümunələrə Avropa və Şimali Amerika ölkələrində istifadə edilən uşaq müavinəti proqramları və ilk dəfə Latın Amerikası ölkələrində tətbiq edilən və Asiya və Afrika ölkələrində geniş şəkildə tətbiq olunan pul transfertləri üzrə proqramlar daxildir. Dövlətlər ən çox təcrid olunmuş ailələrin bank hesabının olmaması ehtimalını nəzərə alaraq bu cür proqramların onlara çatması istiqamətində səylər göstərməlidirlər. Valideynlərə və himayəçilərə, eləcə də bilavasitə küçə mühitində olan uşaqlara maddi dəstək təqdim edilməli və bu cür mexanizmlər və xidmətlər uşaq hüquqları yanaşması əsasında hazırlanmalı və həyata keçirilməlidir. Mənzil təminatına gəldikdə isə, uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq üçün yaşayış yerindən istifadə hüququnun təminatı vacibdir. Buraya təhlükəsiz içməli suya və sanitar-gigiyenik qurğulara çıxışı olan təhlükəsiz, adekvat mənzilə çıxış daxildir. Uşaqlar, o cümlədən qeyri-rəsmi və ya qeyri-qanuni mənzillərdə yaşayanlar adekvat alternativ yaşayış yerləri ilə təmin edilənə qədər məcburi köçürmələrə məruz qalmamalıdır: Dövlətlər zərərçəkmiş uşaqlar üçün təminatlar təşkil etməlidir. Uşaq və insan hüquqlarına təsirlərlə bağlı qiymətləndirmələr yerdəyişmənin mənfi təsirlərini minimuma endirmək üçün inkişaf və infrastruktur layihələri üçün ilkin şərt olmalıdır.

## E. Əlillik və sağlamlıq

### Əlilliyi olan uşaqlara dair 23-cü maddə

52. Əlilliyi olan uşaqlar sosial-iqtisadi amillər də daxil olmaqla müxtəlif səbəblər

səbəblərdən küçə mühitinə düşür və bəzən dilənçilik məqsədilə istismar olunurlar. Dövlətlər bu cür istismarın qarşısını almaq və bu əmələ görə birbaşa cinayət məsuliyyəti müəyyən etmək, günahkarları məsuliyyətə cəlb etmək üçün bütün zəruri tədbirləri görməlidirlər.[48] Küçə mühitində olan uşaqlar küçə həyatının zorakılıq, istismar və narkotik vasitələr və psixotrop maddələrdən sui-istifadə kimi aspektlərinin mənfi təsiri səbəbindən əlillik qazanmaq riski ilə üzləşə bilər. Əqli və psixososial məhdudiyyətlər küçə mühitində olan uşaqları istismar və sui-istifadəyə xüsusilə həssas edə bilər. Dövlətlər əlilliyi olan uşaqların xidmətlərə, o cümlədən inklüziv təhsilə çıxış əldə etməsinə mane olan məsələlərin müəyyən edilməsi və aradan qaldırılması da daxil olmaqla xüsusi müdafiə tədbirləri görməlidir.

## Sağlamlığa dair 24-cü maddə[49] və narkotik vasitə və psixotrop maddələrdən sui-istifadəyə dair 33-cü maddə

53. Küçə mühiti fiziki və psixi sağlamlıq problemləri ilə bağlı həssaslığı artıra bilər.[50] Çətinliklər arasında qeyri-mütənasib dərəcədə yüksək səviyyədə narkotik vasitələr və psixotrop maddələrdən sui-istifadə, İİV[51] və digər cinsi yolla ötürülən infeksiyalar, hamiləlik, zorakılıq (o cümlədən həmyaşıdları tərəfindən), intihar düşüncələri və intiharlar, tənzimlənməyən dərmanlarla özünü müalicə etmək və yoluxucu xəstəliklərə, çirklənməyə və yol qəzalarına məruzqalma daxildir. Komitə küçə mühitində olan uşaqların xüsusi ehtiyaclarına uyğunlaşdırılmış, cinsi və reproduktiv sağlamlıq sahəsini də əhatə edən sağlamlıqla bağlı maarifləndirmə və xidmətlərin zəruriliyini vurğulayır. Bu cür maarifləndirmə və xidmətlər dostyana və dəstəkləyici şəkildə həyata keçirilməli, hərtərəfli, əlçatan, pulsuz, məxfi olmalı, qınağa və ayrı-seçkiliyə rəvac verməməli, uşaqların müstəqil qərarlarına hörmətlə yanaşmalı və valideynlərin razılığını tələb etməməlidir.[52] Səhiyyə xidmətləri fiziki yerindən və sosial statusdan asılı olmayaraq əlçatan olmalıdır. Küçə mühitində olan uşaqlar universal tibbi təminat və sosial müdafiə proqramları vasitəsilə pulsuz əsas tibbi xidmətlərə çıxış əldə etməlidir. Dövlətlər küçə mühitində olan uşaqlar üçün zərərin azaldılması xidmətləri daxil olmaqla, narkotik vasitələr və psixotrop maddələrdən sui-istifadənin qarşısının alınması,

[48] Bax: 9 nömrəli ümumi şərhin 76-cı bəndi.

[49] Uşağın əldə edilə bilən ən yüksək sağlamlıq standartından istifadə hüququna dair 15 (2013) nömrəli ümumi şərh.

[50] Bax: 4 nömrəli ümumi şərhin 34-cü bəndi.

[51] Bax: 3 nömrəli ümumi şərhin 30-cu bəndi.

[52] Eyni mənbə, 20-21-ci bəndlər; 4 nömrəli ümumi şərhin 11-26-cı bəndləri, 15 nömrəli ümumi şərhin xüsusilə 8, 11 və 28-ci bəndləri.

müalicəsi və reabilitasiyası, travmanın müalicəsi və psixi sağlamlıq xidmətlərinin müyəssərliyini artırmalıdır. Bu xidmətlər uşaq hüquqları və küçə mühitində olan uşaqların xüsusi şəraiti ilə bağlı hazırlıq keçmiş mütəxəssislərdən ibarət heyətə malik olmalıdır. Dövlətlər adekvat dəstəklə həmyaşıdlar vasitəsilə həyata keçirilən maarifləndirməni təşviq edə bilərlər. Bu, xüsusilə narkotik vasitələr və psixotrop maddələrdən sui-istifadə, cinsi yolla ötürülən infeksiyalar və İİV ilə mübarizədə təsirli ola bilər. Küçə mühitində olan uşaqların narkotik vasitə ticarətinə cəlb olunmaqdan qorunmasına xüsusi diqqət yetirilməlidir.

## F. Təhsil, asudə vaxt və mədəni fəaliyyətlər

### Təhsilə dair 28-ci maddə

54. Əlçatan, pulsuz, təhlükəsiz, uyğun və keyfiyyətli təhsil uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq və hazırda küçə mühitində olan uşaqların hüquqlarını həyata keçirmək üçün çox vacibdir. Bir çox uşaqlar üçün təhsil cəmiyyətin daha geniş təbəqələri ilə sonuncu əlaqə nöqtəsini təşkil edir. Dövlətlər küçə mühitində olan uşaqların məktəbdə qala bilməsini və onların keyfiyyətli təhsil hüququnun tam şəkildə qorunmasını təmin etmək üçün valideynlərə, himayəçilərə və ailələrə dəstək də daxil olmaqla, adekvat tədbirlər görməlidirlər. Təhsil üçün bir sıra seçimlərin olması zəruridir. Buraya “təhsil üçün ikinci şans”, bərpaedici dərs proqramları, səyyar məktəblər, bazar araşdırması ilə əlaqələndirilmiş peşə təlimi və ardınca gəlir əldə etmək üçün uzunmüddətli dəstək və vətəndaş cəmiyyəti ilə tərəfdaşlıq yolu ilə formal təhsilə aparan yollar daxildir. Müəllimlər uşaq hüquqları və küçə mühitində olan uşaqlar və uşaq yönümlü, birgə tədris metodologiyaları üzrə hazırlıq keçməlidir.

### Təhsilin məqsədlərinə dair 29-cu maddə[53]

55. Küçə mühitində olan uşaqlar üçün təhsilin məqsədləri 29-cu maddəyə uyğun olmalıdır və yazıb-oxuma bacarığı, riyazi bacarıqlar, rəqəmsal bacarıqlar, gündəlik həyat bacarıqları, uşaq hüquqları sahəsində maarifləndirmə, müxtəlifliyə dözümlülük və vətəndaş tərbiyəsini əhatə etməlidir. Bu cür təhsil uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq və hazırda küçə mühitində olan uşaqlar üçün uşaqların müdafiə, inkişaf və iştirak hüquqlarının həyata keçirilməsi, o cümlədən uşaqların müstəqilliyinin gücləndirilməsi və təhlükəli vəziyyətlərin öhdəsindən daha yaxşı gəlmək üçün hüquq və imkanlarının

[53] Təhsilin məqsədləri haqqında 1 (2001) nömrəli ümumi şərh.

artırılması baxımından həyati əhəmiyyət kəsb edir. Dövlətlər məktəbə getməyən uşaqları əhatə etmək üçün təhsil proqramı və qeyri-formal təhsil və küçə təhsili vasitəsilə universal şəkildə bütün uşaqları uşaq hüquqları sahəsində keyfiyyətli, pulsuz təhsil və gündəlik həyat bacarıqları ilə təmin etmək üçün tədbirlər görməlidir.

### İstirahət, oyun və asudə vaxta dair 31-ci maddə

56. Komitə istirahət, oyun, asudə vaxt və incəsənət və mədəniyyət fəaliyyətlərində iştirak hüququnu vurğulayır. Küçə mühitində olan uşaqlar oyun imkanları üçün küçələrin qeyri-rəsmi mühitindən istifadə edərək öz yaradıcılıqlarını tətbiq edirlər. [54] Dövlətlər onların parklardan və oyun meydançalarından ayrı-seçkiliyə rəvac verən bir formada, məsələn, geyim qaydaları ilə əlaqədar kənarlaşdırılmamasını təmin etməli [55] və onlara öz yaradıcılıqlarını inkişaf etdirməkdə və idmanla məşğul olmaqda, o cümlədən səyyar istirahət və idman qurğularından faydalanmaqda kömək etmək üçün tədbirlər görməlidir.

## G. Uşaqlara qarşı zorakılıq və xüsusi müdafiə tədbirləri

### Zorakılığın bütün formalarından azadolma ilə bağlı 19 və 39-cu maddələr[56]

57. Zorakılığın bütün formaları - emosional, fiziki və ya cinsi zorakılıq uşaqların küçə mühitinə düşməsinin əsas səbəb və nəticələrindəndir. Zorakılığın bütün növləri küçə mühitində olan uşaqların həyatına geniş miqyasda sirayət edir və bu, uşaqların özlərinin vurğuladığı əsas narahatlıqlardandır. Küçə mühitində olan uşaqları qorumaq üçün konkret, təxirəsalınmaz və vacib tədbirlər görülməlidir. 13 nömrəli ümumi şərhdəki bütün tövsiyələrlə birlikdə götürülməklə, bu cür tədbirlərə aşağıdakılar daxildir: cismani cəza da daxil olmaqla, zorakılığın bütün formalarının qadağan edilməsi; ailədən və cəmiyyətdən qopma prosesində olan həssas uşaqlarla əlaqə mexanizmləri; zorakılıq, ayrı-seçkilik və hüquq pozuntularının digər formaları barədə məlumat vermə mexanizmləri; və dövlət və ya qeyri-dövlət, fərd və ya qruplar olmasından asılı olmayaraq zorakılıq törədənlərin məsuliyyətə cəlb edilməsi mexanizmləri. Bu uşaqlar tərəfindən

[54] 17 nömrəli ümumi şərh

[55] Eyni mənbə, 49-cu bənd

[56] 3 nömrəli ümumi şərhin 19-cu və 36-37-ci bəndləri, 4 nömrəli ümumi şərhin 2 və 23-cü bəndləri; “Uşağın cismani cəzadan və digər qəddar və ya ləyaqəti alçaldan cəza növlərindən müdafiə hüququ haqqında” 8 (2006) nömrəli ümumi şərh və 13 nömrəli ümumi şərh.

onların rifahına təhlükə kimi bildirilən şəxslərlə, məsələn, bəzi polis əməkdaşları, mütəşəkkil cinayətkarlıq və narkotik vasitə qaçaqmalçılığı ilə məşğul olan şəxslərlə mübarizə aparmaq üçün xüsusi mexanizmlər yaradılmalı ola bilər.

### Cinsi zorakılıq, cinsi istismar, insan alveri və digər istismar formalarına dair 34-36-cı maddələr

58. Küçə mühitində olan uşaqlar cinsi zorakılığa və istismara qarşı xüsusilə həssasdırlar və Konvensiyanın "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakultativ Protokolu" onlar üçün xüsusilə aktualdır. Küçə mühitində olan uşaqların xüsusi vəziyyətinin öyrənilməsi üzrə hazırlıq keçmiş mütəxəssislər gender aspektlərinə həssas yanaşılan cavab tədbirləri görməlidir. Uşaqların küçə mühitinə düşməsinin səbəbi cinsi və ya əmək istismarı məqsədi ilə həyata keçirilmiş insan alveri ola bilər və/yaxud uşaqlar küçə mühitində olduqları dövrdə bu cür insan alverinə, habelə bədən hissələrinin alverinə və istismarın digər formalarına qarşı müdafiəsiz ola bilərlər.

### Uşaq əməyinə dair 32-ci maddə

59. Komitə, dövlətləri küçə mühitində olan uşaqları iqtisadi istismardan və uşaq əməyinin ən kəskin formalarından qorumaq üçün Konvensiyanın 32-ci maddəsinin 2-ci bəndinin müddəalarını, eləcə də Beynəlxalq Əmək Təşkilatının "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında" 138 nömrəli Konvensiyasının (1973) və "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlər haqqında" 182 nömrəli Konvensiyasının (1999) müddəalarını yerinə yetirməyə çağırır. Uşaq əməyinə qarşı mübarizə fəaliyyəti hərtərəfli tədbirlər, o cümlədən uşaqların təhsilə keçməsinə şərait yaradan və onlar və ailələri üçün adekvat yaşayış səviyyəsini təmin edən dəstəyin göstərilməsini əhatə etməlidir. Bu tədbirlərin uşaqların ali maraqlarını əks etdirməsi və onların sağ qalmasına və ya inkişafına planlaşdırılmayan mənfi təsir göstərməməsini təmin etmək üçün bu tədbirlər küçə mühitində olan uşaqlar və digər əsas maraqlı tərəflərlə əməkdaşlıq şəraitində hazırlanmalıdır. Dilənçilik və ya icazəsiz ticarətə görə cinayət məsuliyyətinin müəyyən edilməsi sağ qalmaq üçün davranışların daha pis formaları, məsələn, cinsi istismarla nəticələnə bilər. Küçə mühitində olan uşaqlar üçün büdcə tərtibi bacarıqlarını inkişaf etdirmək və qazanclarının təhlükəsizliyini qorumaq üçün qənaət proqramlarının olması faydalıdır.

### Yuvenal ədliyyəyə dair 37 və 40-cı maddələr

60. Küçə mühitində olan uşaqların təqib olunmaq, cinayət məsuliyyətinə cəlb

edilmək və yetkinlik yaşına çatmayanlar və ya yetkinlik yaşına çatmış şəxslərin işləri üzrə ədalət mühakiməsi sisteminə düşməsi ehtimalı daha böyükdür, məhkəmədənkənar tədbirlərdən, həbs qətimkan tədbirinin alternativlərindən və ya bərpaedici təcrübələrdən faydalanma ehtimalları isə daha aşağıdır, çünki onlar girov təqdim etmək qabiliyyətinə və onlar üçün zamin olacaq yetkinlik yaşına çatmış cavabdeh şəxslərlə əlaqəyə malik olmaya bilər. Polisin qanunsuz hərəkətləri, məsələn, təzyiq (o cümlədən uşaqların pullarını və əşyalarını oğurlamaq, onları kütləvi halda tutmaq və ya özbaşına köçürmək (çox vaxt öz rəhbərlərinin və/və ya siyasətçilərin göstərişi ilə), korrupsiya, hədə-qorxu ilə tələb etmək (pul və ya cinsi əlaqə) və fiziki, psixoloji və ya cinsi zorakılıq dövlətlərin təcili olaraq cinayət hesab etməli olduğu çox rast gəlinən hüquq pozuntularıdır. Komitə küçə mühitində olan uşaqlar üçün cinayət məsuliyyəti müəyyən edən və məcburi müəssisəyə yerləşdirmə ilə nəticələnən "sıfır dözümsüzlük" siyasətinin tətbiqindən narahatdır. Dövlətlər küçə mühitində olan uşaqların cəzalandırılmasından daha çox, müdafiəsini ön plana çıxarmaqla, icma səviyyəsində polis nəzarətini dəstəkləməli və multikulturalizm prinsipinə söykənən polis xidməti formalaşdırmalıdır. Dövlətlər cəzalandırıcı deyil, bərpaedici yuvenal ədliyyə sistemi kontekstində bütün uşaqların, o cümlədən küçə mühitində olanların bütün hüquqlarına təminat verməlidir.[57]

### Silahlı münaqişələrə dair 28-ci maddə

61. Küçə mühitində olan uşaqlar silahlı qüvvələrə və ya silahlı qruplara cəlb olunmağa qarşı müdafiəsiz olduğu üçün Konvensiyanın "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokolu" aktualdır. Münaqişələr sosial çevrələrin dağılması, ailə üzvlərinin ayrı düşməsi, icmalardan köçürülmə və ya icmaların silahlı qruplardan tərxis olunmuş uşaq əsgərlərdən imtinası ilə əlaqədar, uşaqların küçə mühitinə düşməsinə gətirib çıxara bilər. Qabaqlayıcı tədbirlərə gəldikdə, uşaq hüquqları sahəsində maarifləndirmə, o cümlədən sülh barədə və silahlı qruplara cəlb olunma əleyhinə təşəbbüslər barədə maarifləndirmə küçə mühitində olan uşaqları da əhatə etməlidir. Silahlı münaqişənin təsirini minimuma endirmək üçün uşaqların ailələrdən ayrılmasının mənfi təsirlərini proaktiv şəkildə azaldacaq müdaxilələr və ailə axtarışı üzrə proqramlar prioritetləşdirilməlidir. Uşaqlara yönələn tərksilah, tərxis və reinteqrasiya proqramları hazırlanarkən, küçə ilə əlaqələrin dinamikası uşaqların silahlı münaqişələrə cəlb edilməsinin səbəbi və nəticəsi kimi nəzərə almalıdır.

## VI. Məlumatların yayılması və əməkdaşlıq

[57] Bax: 6 nömrəli ümumi şərhin 61-ci bəndi; və 10 nömrəli ümumi şərhin 6, 8-9 və 16-cı bəndləri.

## Məlumatların yayılması

62. Komitə, dövlətlərə bu ümumi şərhi hökumət strukturlarına, hüquqi və inzibati strukturlara, küçə mühitində olan uşaqlara, valideynlərə və himayəçilərə, peşəkar təşkilatlara, icmalara, özəl sektora və vətəndaş cəmiyyətinə geniş şəkildə yaymağı tövsiyə edir. Bütün yayım kanallarından, o cümlədən çap mediası, İnternet və uşaqların öz kommunikasiya vasitələrindən, məsələn, hekayələrin şifahi nəqlindən və həmyaşıdlar vasitəsilə maarifləndirmədən istifadə edilməlidir. Bu, onun müvafiq dillərə, o cümlədən əlilliyi olan və yazıb-oxuma bacarığı məhdud olan uşaqlar üçün işarə dili, Brayl əlifbası və asan başa düşülən formatlara tərcüməsini tələb edir. O, həmçinin yerli mədəniyyət üçün uyğun və uşaq yönümlü versiyaların, mətn əsaslı deyil, şəkilli versiyaların hazırlanmasını, seminarların keçirilməsini, habelə onun təsirlərini və ən yaxşı şəkildə necə həyata keçirilə biləcəyini müzakirə etmək üçün yaşa və əlilliyə görə uyğunlaşdırılmış xüsusi dəstəyin təmin olunmasını və onun küçə mühitində olan uşaqlar üçün və onlarla işləyən mütəxəssislərin hazırlığına daxil edilməsini şərtləndirir. Bununla yanaşı, dövlətlərə Komitəyə təqdim etdikləri hesabatlara küçə mühitində olan uşaqlar haqqında məlumat daxil etmək tövsiyə olunur.

## Beynəlxalq əməkdaşlıq

63. Komitə, dövlətləri uşaqların küçə mühitinə düşməsinin qarşısını almaq və artıq küçə mühitində olan uşaqları qorumaq üçün beynəlxalq öhdəlikləri, əməkdaşlığı və qarşılıqlı yardımı gücləndirməyə çağırır. Bura təsirli olduğu nümayiş etdirilmiş, hüquqlara əsaslanan təcrübələrin müəyyən edilməsi və bölüşülməsi, tədqiqat, siyasət, monitorinq və potensialın gücləndirilməsi daxildir. Əməkdaşlıq üçün dövlətlərin, Birləşmiş Millətlər Təşkilatının orqanlarının və agentliklərinin, regional təşkilatların, vətəndaş cəmiyyəti təşkilatlarının (o cümlədən uşaqların rəhbərlik etdiyi təşkilatlar və elmi dairələr), uşaqların, özəl sektorun və mütəxəssis qruplarının iştirakı tələb olunur. Komitə həmin tərəfləri qabaqlayıcı və cavab tədbirləri üçün keyfiyyətli, sübutlara əsaslanan müdaxilə ilə bağlı davamlı, yüksək səviyyəli siyasət dialoqlarına və tədqiqatlara şərait yaratmağa çağırır. Bura beynəlxalq, milli, regional və yerli səviyyələrdə dialoqlar daxildir. Bu cür əməkdaşlıq, sərhədləri miqrantlar, qaçqınlar və sığınacaq axtaran şəxslər kimi, eləcə də transsərhəd insan alverinin qurbanları/zərərçəkənləri kimi keçən uşaqların müdafiəsinin təmin edilməsinə yönəlməli ola bilər.

---

İNSAN HÜQUQLARI

